HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 22 (864) ■ 14 iyun 2017

www.vergiler.az

Qiyməti: 60 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Müasir müstəqil Azərbaycanın XİLAS GÜNÜ

## 15 iyun xalqımızın tarixinə qızıl hərflərlə həkk olunub

**1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.**




Ümummilli lider Heydər Əliyevin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi ölkədə hökm sürən böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi

Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

# Erməni vəhşiliyi bütövlükdə müsəlman aləminə qarşı törədilən cinayətdir

İyunun 13-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. Qonaqları salamlayan dövlətimizin başçısı bildirib ki, mübarək Ramazan ayında bu cür görüşlər ənənəvi xarakter daşıyır: «Sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz ikitərəfli formatda fəal əməkdaşlıq edirik və beynəlxalq arenada da bir-birimizi daim dəstəkləyirik. Xüsusilə BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil etdiyiniz ölkələrlə əməkdaşlığımız çox uğurludur. Ötən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə də təşkilat və onun üzvləri Azərbaycana bir daha öz dəstəyini bildirmişlər. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir».



Prezident İlham Əliyev bildirib ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyi İslam Əməkdaşlıq Təşkilatı tərəfindən dəstəklənir: «Müsəlman ölkələri tərəfindən göstərilən dəstək və həmrəylik bizim üçün çox önəmlidir. Bu dəstəyə görə mən təşkilatın üzvlərinə minnətdaram».

Erməni işğalı nəticəsində bir milyondan artıq azərbaycanlının öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşdüyünü vurğulayan dövlətimizin başçısı bildirib ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır: «Biz bütün beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı həqiqətləri ortaya qoyuruq, dünya ictimaiyyətinə çatdırırıq. Əlbəttə, bunu müsəlman ölkələrinin ictimaiyyətinə də çatdırırıq ki, bu ölkələrdə yaşayan bizim qardaşlarımız ermənilər tərəfindən işğal edilmiş torpaqlarda hansı vəhşiliklərin törədildiyini görsünlər. Bu vəhşilik təkcə Azərbaycana qarşı deyil, bütün müsəlman aləminə qarşı törədilib... Şuşa məscidləri, Ağdam məscidləri, işğal altında olan digər şəhərlərimizin məscidləri ermənilər tərəfindən dağıdılıb. Bu cinayət bütün müsəlman aləminə qarşı törədilmiş cinayətdir».

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə daim öz töhfəsini verir: «Bu ili «İslam Həmrəyliyi İli» elan etməyimiz bizim siyasətimizi əks etdirir, niyyətimizi göstərir. Mən tam əminəm ki, biz - müsəlman ölkələri öz aramızda olan problemləri dinc yolla həll etməliyik və həmrəyliyi gücləndirməliyik. Bu il, eyni zamanda, Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Təmsil etdiyiniz ölkələrin idmançıları Azərbaycanda bu Oyunlarda iştirak edirdilər. Əminəm ki, onlar öz ölkələrinə ən xoş təəssüratlarla qayıdıblar. İslam Həmrəyliyi Oyunları sadəcə idman yarışı deyil, biz istəyirdik ki, bu Oyunlar İslam aləmini birləşdirsin. İdmançılar, qonaqlar Bakıda olarkən bir ailə kimi yaşayırdılar və əminəm ki, bu günlər ərzində İslam həmrəyliyi ən yüksək zirvəyə qalxmışdır. Biz də çalışmalıyıq ki, bu həmrəyliyi bu yüksək zirvədə saxlayaq. Əminəm ki, belə də olacaq».

# Azərbaycan MDB çərçivəsində əməkdaşlığa mühüm əhəmiyyət verir

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçiriləcək Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya, Belarus, Özbəkistan, Qırğızıstan, Tacikistan, Qazaxıstanın gömrük xidmətlərinin rəhbərlərini və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedevi qəbul edib.

Dövlətimizin başçısı Şura iclasında səmərəli müzakirələrin aparılacağına və müvafiq qərarların qəbul ediləcəyinə ümidvar olduğunu bildirib, bu mötəbər tədbirin Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. Gömrük xidmətlərinin ölkələrin inkişafında mühüm rol oynadığını vurğulayan Prezident İlham Əliyev büdcə gəlirlərinin təmin olunmasında və ümumi iqtisadi inkişaf dinamikasında bu xidmətlərin rolunu qeyd edib. Azərbaycanda gömrük sahəsində son zamanlar ciddi islahatların aparıldığını vurğulayan dövlətimizin başçısı bildirib ki, ticarət dövriyyəsinin bir qədər azalmasına baxmayaraq, bu islahatların səmərəli şəkildə həyata keçirilməsi nəticəsində gömrük rüsumlarının yığımı artıb. Bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini qeyd edən Prezident İlham Əliyev Azərbaycan üçün ümumilikdə MDB çərçivəsində əməkdaşlığın bütün sahələrinin mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin bütün iştirakçılar adından Şuranın növbəti iclasının Bakıda keçirilməsi üçün yaradılan imkana görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, bu tədbirin qarşılıqlı anlaşmanın səmərəli informasiya mübadiləsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib və bu gün MDB-yə üzv ölkələr arasında gömrük sahəsində informasiya mübadiləsinin yüksək səviyyədə aparıldığını vurğulayıb. V.Bulavin bu cür tədbirlərin, eyni zamanda, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti ilə bağlı aktual məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını deyib.

MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev də iclasın yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib və qeyd edib ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyi çərçivəsində artıq bir sıra mühüm tədbirləri uğurla həyata keçirir. O, Azərbaycana budəfəki səfəri zamanı Bakının daha da gözəlləşdiyinin şahidi olduğunu və bunun onda dərin təəssürat yaratdığını deyib.

# Qarşılıqlı münasibətlər yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Bolqarıstan Respublikasının baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

S.Tsatsarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən işlərə öz rəğbətini ifadə edib, respublikamızda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirib. O, hər iki ölkənin prokurorluq orqanları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, bu əməkdaşlığın yüksək peşəkar səviyyədə və dostluq şəraitində aparıldığını vurğulayıb.

Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etdiyini bildirib. Hər iki ölkənin rəhbərlikləri arasında mövcud olan əməkdaşlıq və qarşılıqlı dəstək səviyyəsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu səfərin münasibətlərimizin perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını bildirib.

## BU NÖMRƏMİZDƏ

AZƏRBAYCAN VƏ QAZAXISTAN ARASINDA VERGİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 2

ƏMƏK MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ ƏSASLI DƏYİŞİKLİKLƏR GÖZLƏNİLİR 3

NAĞDSIZ HESABLAŞMALAR FƏALİYYƏTİN ŞƏFFAFLIĞINI TƏMİN EDİR 4

AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ ƏLAQƏLƏR GENİŞLƏNİR 5

# Azərbaycan və Qazaxıstan arasında vergi sahəsində əməkdaşlıq genişlənir



İyunun 13-də Vergilər Nazirliyində Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin nümayəndə heyəti ilə görüş keçirilib

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov qonaqları salamlayaraq Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, vergi sistemində aparılan modernləşmə prosesi, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, elektron hökumət quruculuğu istiqamətində əldə edilən nailiyyətlər barədə məlumat verib. Bildirilib ki, 2016-cı ilin iyulundan Azərbaycanda turistlər tərəfindən alınmış mallara görə ödənilən əlavə dəyər vergisinin (ƏDV) geri qaytarılması sisteminin - «Tax free»nin tətbiqinə başlanıb. Bu sistemin tətbiqinin ölkəyə əcnəbi turistlərin marağının artırılması, turizmin inkişafında davamlılığın təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədini daşıdığını bildirən S.Məmmədxanov «Tax free» sistemi üzrə operator səlahiyyətlərinin Vergilər Nazirliyi tərəfindən həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, «tax free» stikerləri olan mağazalarda istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulan mallar istisna olmaqla, alınan digər mallara görə ödənilən ƏDV-nin məbləği əcnəbi vətəndaşlar ölkəni tərk etdiyi zaman onlara Azərbaycanın hava və dəniz limanlarında geri qaytarılır.

Qonaqlara ölkəmizdə ƏDV qaytarılması prosesinin spesifik xüsusiyyətləri barədə ətraflı məlumat verilib və bu sistemin respublikamızda keçirilən Bakı Şopinq festivalı dövründə yerli alıcılara da tətbiq edildiyi bildirilib. Qeyd olunub ki, Vergilər Nazirliyi ticarət festivallarının operatoru kimi ƏDV-nin qaytarılması ilə bağlı proqram təminatının, vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edib.

Görüş zamanı qonaqlar ölkəmizin vergi sistemində tətbiq olunan vergi dərəcələri, vergi islahatlarının gedişatı, vergi sisteminin iqtisadi siyasət məqsədlərini dəstəkləməsi, büdcə gəlirlərində ayrı-ayrı vergi növlərinin rolu, uçot sistemində aparılan modernləşmə prosesi ilə bağlı ətraflı məlumatlandırılıb. Vurğulanıb ki, bu islahatların əsas məqsədi ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli şərtlərin tətbiqi, vergi ödəyicilərinə yüksək xidmətlərin göstərilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılmasıdır.

Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə qonaqların diqqətinə çatdırıb ki, Vergilər Nazirliyi vergitutma sahəsində dünyada gedən prosesləri yaxından izləyir, mütərəqqi beynəlxalq təcrübənin milli vergi sistemində tətbiqi istiqamətində tədbirlər həyata keçirir. Vergilər Nazirliyinin beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verdiyini vurğulayan Z.Fətizadə ölkəmizin digər dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, son illər ikiqat vergitutmanın aradan qaldırılması və məlumat mübadiləsi sahəsində sazişlər şəbəkəsinin əhəmiyyətli şəkildə genişləndiyini qeyd edib.

Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Ardak Tenqebayev ölkəmizin vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu bildirib. Komitə sədri Azərbaycan və Qazaxıstan arasında işgüzar münasibətlərin ildən-ilə inkişaf etdiyini, son dövrlər bu ölkələrin vergi xidmətləri arasında əməkdaşlığın, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin müsbət nəticələr verdiyini, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd edib. Azərbaycan və Qazaxıstan hökumətləri arasında ikiqat vergitutmanın qarşısının alınması haqqında sazişin uğurla tətbiq edildiyi vurğulanıb.

Görüşdə yaxın gələcəkdə ölkələrimizin vergi orqanları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Proqnoz tapşırığına tam həcmdə əməl edilib

2017-ci ilin yanvar-may ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 2 milyard 825 milyon 799,7 min manat məbləğində vəsait ödənilib, Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 104,7% əməl olunub.

# Qanun pozuntularına qarşı ciddi tədbirlər görülür

Vergilər Nazirliyi tərəfindən Bakı şəhəri ərazisində keçirilmiş vergi nəzarəti tədbirləri zamanı qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələri hüquqi qüvvəyə minmədən xeyli sayda vətəndaşın işlərə cəlb edilməsi faktları aşkarlanıb.

İyun ayının 5-də fiziki şəxs Toğrul Fuad oğlu Nəbiyevin rəhbərlik etdiyi kompozit taxta sexində və «Vegaplast» MMC-yə məxsus istehsal sexində əmək münasibətləri sahəsində vergi nəzarəti tədbirləri keçirilib. Nəzarət tədbirləri zamanı Toğrul Nəbiyevə məxsus Bakı şəhərinin Sabunçu rayonunda yerləşən və «Tekoplast» əmtəə nişanı adı altında kompozit taxtalar, pvc lambirinlər, plintuslar, asma tavanlar istehsal edilən sexdə işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunan 19 nəfər fiziki şəxsin, eyni ünvanda yerləşən «Vegaplast» MMC-yə məxsus su boruları, dam örtükləri, izolyasiya panelləri istehsal edilən sexdə isə işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunan 42 nəfər fiziki şəxsin hüquqi qüvvəyə minmiş əmək müqavilələrinin (kontraktının) olmadığı müəyyən edilib.

Əmək müqavilələri olmadan işçilərin geniş miqyasda işə cəlb edilməsi halları bundan əvvəl keçirilən nəzarət tədbirləri zamanı da aşkarlanmışdı. Məsələn, hüquqi şəxs «DONQFANQ İNTERNATİON» MMC-yə məxsus Abşeron rayonu, Maştağa qəsəbəsi, subtropik bağlar sovxozu ərazisində yerləşən və lambir istehsal edilən sexdə də oxşar hallar aşkara çıxarılmışdı. Tədbir zamanı müəssisənin Çin əsilli rəhbərliyi yerli işçiləri anbarda gizlətməyə cəhd göstərsə də, onların yeri müəyyən olunmuş, işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilən 33 nəfər fiziki şəxsin hüquqi qüvvəyə minmiş əmək müqavilələrinin (kontraktının) olmadığı müəyyən edilmişdi. İşçilərdən alınmış izahatlardan aydın olmuşdu ki, bu sahədə bir neçə ay ərzində çalışdıqlarına baxmayaraq, onların heç biri ilə əmək müqaviləsinin (kontraktının) hüquqi qüvvəyə minməsi ilə bağlı sənədləşdirmə işləri aparılmayıb.

Faktla bağlı materiallara Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işinin başlanması məqsədilə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində baxılacaqdır.

Ümumilikdə isə 2017-ci ilin ilk 5 ayı ərzində əmək müqavilələrinə nəzarət tədbirləri zamanı 261 vergi ödəyicisi üzrə 1965 nəfər əmək müqaviləsi olmayan işçi aşkar edilib, işəgötürənlərə 1,6 mln. manat maliyyə sanksiyası tətbiq olunmaqla məsuliyyət qərarı çıxarılıb. Bu müddət ərzində «Ştutqart» (ehtiyat hissələr mağazası), «Halal Tekstil», «Arm» (MADO restoranlar şəbəkəsi), «Altrade», «Təmiz qida», «Salam şirkətlər qrupu» («Salam taksi») MMC kimi vergi ödəyicilərində də işçi sayının bilərəkdən az göstərilməsi halları aşkarlanıb, qeyd olunan obyektlər barəsində məsuliyyət qərarı çıxarılıb.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunvericilikdə nəzərdə tutulan ən sərt tədbirlər görüləcəkdir.

# Vergi güzəştləri və azadolmalar səmərəli olmalıdır

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamenti tərəfindən Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicilərinə verilmiş vergi güzəştləri və azadolmalarının monitorinqi aparılıb, güzəşt və azadolmaların ümumi vəziyyəti təhlil edilib.

Departamentin məlumatında qeyd olunur ki, vergi siyasətinin əsas hədəflərindən birinin ölkədə sahibkarlıq subyektləri üçün əlverişli biznes mühitinin yaradılması və vergi yükünün optimallaşdırılmasından ibarətdir. Bu məqsədlə hər il Vergi Məcəlləsində dəyişikliklər hazırlanarkən vergi güzəşti və azadolmalarının monitorinqi aparılır, iqtisadi fəaliyyət sahələri üzrə aktivlik qiymətləndirilir, mövcud iqtisadi vəziyyətdə prioritet hesab olunan sahələr müəyyənləşdirildikdən sonra həmin sahənin inkişaf etdirilməsi üçün vergi güzəştlərinin verilməsi məsələsinə baxılır.

Vergi güzəştləri və vergidən azadolmalar vergi siyasətinin tərkib hissəsi olmaqla yanaşı, konkret bir müddət üçün nəzərdə tutulur. Verilmiş güzəşt və azadolmalar digər vergi ödəyicilərinə münasibətdə diskriminasiyaya səbəb olmamaq şərti ilə iqtisadiyyatın yalnız prioritet sahələri nəzərə alınmaqla müəyyən dövr üçün qanunverici orqan tərəfindən Vergi Məcəlləsinə dəyişiklik edilməklə verilir və bu müddət ərzində həmin fəaliyyət sektorunun normal iqtisadi vəziyyətinin təmin olunmasına xidmət edir. Vergilər fiskal və stimullaşdırıcı funksiyanı həyata keçirməklə yanaşı, nəzarət (tənzimləmə) funksiyasını da özündə ehtiva etdiyindən daim güzəşt və azadolmaların verilməsi bu mənada vergi siyasətinin əsas hədəfi ola bilməz.

Son illər ərzində Vergi Məcəlləsində nəzərdə tutulan güzəşt və azadolmalar artaraq vergi ödəyicilərinin daha geniş fəaliyyətinə əlverişli imkan yaradıb. 2017-ci il yanvarın 1-dək Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt təsbit edilib. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında vergi tənzimlənməsinin əsas alətlərindən biri olan vergi güzəştlərinin və azadolmalarının tətbiqi üzrə səmərəliliyin müəyyən edilməsi və bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla əsaslı təkmilləşdirilmə işlərinin görülməsi aktual məsələ kimi qarşıya qoyulub. Konsepsiyanın icrası ilə əlaqədar vergilər nazirinin 19 mart 2013-cü il tarixli əmri ilə təsdiq edilmiş «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da vergi güzəşti və azadolmalarının monitorinqinin aparılması və onların səmərəliliyinin müəyyən edilməsi nəzərdə tutulub.

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə vergi güzəştlərinə iqtisadiyyatın gələcək inkişafı baxımından stimullaşdırıcı amil kimi yanaşılır. Vergilər Nazirliyinin təsdiq etdiyi Tədbirlər Planında səmərəli vergi sisteminin təşviq edilməsi, kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi nəzərdə tutulub. Bununla əlaqədar nazirliyin işçi qrupunun fəaliyyət proqramında 2017-2020-ci illər ərzində ölkənin sosial-iqtisadi siyasəti nəzərə alınmaqla vergi güzəştlərinin və azadolmalarının monitorinqini aparmaq, onların səmərəliliyini müəyyən etmək əsas vəzifələrdən biri kimi müəyyən edilib.

### Əhalinin məşğulluğu artır

Vergi mütəxəssisi Arif Quliyev hesab edir ki, Vergi Məcəlləsində vergilərin sahibkarlıq fəaliyyətini və investisiyaları təşviq etməsi, aztəminatlı təbəqələrin maddi təminatının yaxşılaşdırılması əsas prinsiplər kimi müəyyən olunub. Sahibkarlığın inkişafını nəzərdə tutan istənilən vergi güzəşti istehsal həcminin artırılması, texnologiyaların inkişaf etdirilməsi üçün şərait yaratmaqdadır. Vergi güzəştlərinin verilməsi həm də əhalinin məşğulluğunun artırılmasına, sosial gərginlik yaradan faktorların zəifləməsinə, iqtisadi aktivliyin sürətli inkişafına və strateji inkişaf faktorlarına müsbət təsir göstərir. Bütün bunlar isə öz növbəsində, dolayısı ilə də olsa, uzunmüddətli perspektivdə dövlət xəzinəsinə vergi gəlirlərinin artırılmasına şərait yaradır.

Vergi güzəştləri vergi mənbələrinin qorunub saxlanmasına müsbət təsir göstərməklə istehsalın azalmasının qarşısını alır və leqallaşma sayəsində vergitutma bazasının genişlənməsinə şərait yaradır. Bundan əlavə, ölkə qanunvericiliyində vergi güzəştlərinin olması gəlirlərin nisbətən güzəştli vergi tutulan ölkələrə transfer edilməsinin qarşısını müəyyən dərəcədə almış olur. İnvestisiyaya və ya kreditlərin qaytarılmasına yönəldilən mənfəətin vergidən azad edilməsi vergi ödəyicilərinin daxili resurslarından istifadə olunması imkanlarını xeyli genişləndirir.

### Vergi ödəyicilərinin sayında əhəmiyyətli artım var

«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin rəhbəri Ruslan Atakişiyev hesab edir ki, vergi güzəştləri yeni sahibkarlıq subyektlərinin yaranması, istehsal və xidmət sahələrinin genişləndirilməsi, iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyətə malikdir. 2012-ci illə müqayisədə vergi ödəyicilərinin sayında əhəmiyyətli artım baş verib. Həmin ildə vergi ödəyicilərinin sayı təxminən 500 min nəfər təşkil edib. Hazırda isə vergi orqanlarında qeydiyyatda olan vergi ödəyicilərinin sayı 865 mini keçib. Bunlardan 105 mindən çoxu hüquqi, 760 mindən çoxu isə fiziki şəxslərdir. Bu, son 6 ildə səmərəli vergi siyasətinin nəticəsi hesab oluna bilər.




Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə geniş güzəştlərin verilməsi bu sahələrin inkişafına ciddi təkan verib. Belə ki, təhlil zamanı müəyyən olunub ki, 01.01.2017-ci il tarixinə əsas fəaliyyət növü kənd təsərrüfatı məhsullarının istehsalı olan 158.448 vergi ödəyicisi qeydiyyata alınıb.

Son illər Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə vergi dərəcələrinin optimallaşdırılması dövlətin sosial yönümlü layihələrinin səmərəliliyini artırıb. Vergi Məcəlləsinə 2013-cü ilin 1 yanvarından qüvvəyə minmiş əlavə və dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilib, aylıq və illik gəlirlərin 14% dərəcəsi ilə vergiyə cəlb edilən məbləği, müvafiq olaraq, 2000 manatdan 2500 manata və 24.000 manatdan 30.000 manata qaldırılıb. Bununla yanaşı, əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılıb və bütün bunlar vətəndaşların gəlirlərinin böyük bir hissəsinin öz sərəncamında qalmasına, orta aylıq əməkhaqqının da artımına imkan yaradıb.

Təkcə kənd təsərrüfatı sektoru üzrə vergi güzəştlərinin tətbiqi aqrar sektorda istehsalın artımına müsbət təsir göstərir. Bu sahədə vergi güzəştinin tətbiq olunması təxminən hər il 130-140 milyon manat vəsaitin istehsalçıda qalması deməkdir. Həmin vəsait kənd təsərrüfatı istehsalçıları üçün əlavə maliyyə, investisiya mənbəyi təşkil edir və bu sərmayənin təkrar istehsala yönəldilməsi iqtisadi artımda mühüm rol oynayır. Məsələn, 2001-ci ildə ölkə üzrə cəmi 1,3 milyard manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdirsə, hazırda bu rəqəm 5,3 milyard manatdır. Son 12 ildə ölkədə taxıl istehsalı 1,5 dəfə, kartof istehsalı 2,2 dəfə, meyvə-tərəvəz istehsalı 1,7 dəfə, bostan məhsullarının istehsalı 1,8 dəfə, üzüm istehsalı 1,9 dəfə, şəkər çuğunduru istehsalı 5,7 dəfə, ət istehsalı 2,5 dəfə, süd istehsalı 1,8 dəfə artıb.

### İxrac stimullaşdırılır

2017-ci ildən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri aqrar sahədə çalışan kiçik və orta sahibkarlığın fəaliyyətini stimullaşdırmaq, vergi yükünü optimallaşdırmaqdır. Bu məqsədlə unun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub. Kənd təsərrüfatı istehsalçıları 2019-cu il yanvarın 1-dək vergi güzəştləri ilə əhatə olunacaqlar.

Məcəlləyə edilmiş dəyişikliklərin bir istiqaməti də sənaye texnoparklarına güzəştli vergi rejiminin tətbiq olunması ilə bağlıdır. Belə ki, sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər 7 il müddətinə əmlak və torpaq vergisindən azad olunub. Bu siyasət ötən illərdə öz mühüm bəhrəsini göstərib və Sumqayıt Kimya Sənaye, Balaxanı Sənaye və Qaradağ Sənaye parklarına sərmayə yatıran investorların sayı artıb. Hazırda Mingəçevir və Pirallahı sənaye parklarının təşkili istiqamətində ciddi işlər aparılır. Ötən il Vergi Məcəlləsinə edilmiş digər dəyişikliyə əsasən, Qaradağ Sənaye Parkının rezidenti olan «Bakı Gəmiqayırma Zavodu» MMC 5 il müddətinə fəaliyyəti üçün lazım olan malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə vergilərdən azad edilib. Bu addım Azərbaycanda sənaye zonalarına yerli və xarici sərmayəçilərin marağının artmasına, investisiya qoyuluşlarının yüksəlməsinə səbəb olmaqdadır. Həmçinin, investisiya mühitinin daha da əlverişli olması məqsədilə investisiya təşviqi sənədini alan vergi ödəyicilərinin mənfəət və gəlir vergisi 7 il müddətinə 50% həcmində azad edilib. Eyni zamanda, həmin şəxslər 7 il müddətinə əmlak və torpaq vergisindən, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən azad olunub.

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, dəmir yolu ilə nəql edilən yüklərin Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi son dəmir yolu stansiyasında xarici dövlətlərin yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd-buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındığı hallarda, 2016-cı il iyun ayının 1-dən etibarən 3 il müddətinə yol vergisindən azad edilib.

Məhz bunun nəticəsində son bir ildə Azərbaycandan xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin səviyyəsi aşağı düşüb.

Qanunvericilikdə edilmiş bu dəyişikliklər sahibkarlıq subyektləri tərəfindən ixracyönümlü fəaliyyətin genişlənməsinə şərait yaradıb. Eyni zamanda, malların (işlərin və xidmətlərin) ixracını həyata keçirən şəxslərin fəaliyyətlərinin fasiləsizliyinin təmin olunması və dövriyyə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi məqsədilə ƏDV üzrə büdcədə yaranmış artıq ödəmələrin qaytarılma müddəti 45 gündən 20 günə endirilib.

Lakin bütün bunlarla yanaşı, onu da nəzərə almaq lazımdır ki, vergi güzəşti və azadolmaları daimi xarakter daşıya bilməz. Bu, eyni zamanda, büdcəyə vergi daxilolmalarının azalması deməkdir və güzəştlər səmərəli olmalıdır.

**Elbrus CƏFƏRLİ**

# Əmək münasibətlərinin tənzimlənməsi sistemində əsaslı dəyişikliklər gözlənilir

Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, bu gün Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5,0 milyon nəfərdən çoxdur. Bunun təxminən 1,5 milyon nəfəri muzdlu işçilərdir, kənd təsərrüfatı sahəsində isə 2,5 milyon nəfər çalışır. Bununla belə, dövlət orqanlarında əmək münasibətlərinin rəsmiləşdirilməsi ilə bağlı problem öz aktuallığını saxlamaqdadır.

«Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin bu ilin mart ayının 17-də imzaladığı sərəncama əsasən, əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi və koordinasiyası komissiyası yaradılmış və onun qarşısında konkret vəzifələr müəyyən edilmişdir. Komissiyanın sədri, Baş nazirin müavini Əli Əhmədov «Azərbaycan» qəzetinə müsahibəsində bildirib ki, ölkə iqtisadiyyatında təkmilləşdirilməyə ciddi ehtiyac duyulan sahələrdən biri əmək münasibətləri sistemidir. Ölkədə əmək münasibətlərinin rəsmiləşdirilməməsi ciddi iqtisadi və sosial xarakterli problemdir: «Qeyri-rəsmi məşğulluq, hər şeydən əvvəl, ölkədə əmək resursları, əmək bazarı barəsində aydın məlumatlar əldə etməyə imkan vermir. Bu isə öz növbəsində iqtisadi proqnozların hazırlanıb həyata keçirilməsi, əmək resurslarından səmərəli istifadə edilməsi qarşısında böyük çətinliklər yaradır. Bundan əlavə, əmək münasibətlərinin rəsmiləşdirilməməsi sayəsində əməkhaqqı ilə bağlı göstəricilər lazımi uçotdan kənarda qalır və beləliklə də makroiqtisadi göstəricilərin səviyyəsi olduğundan xeyli aşağı düşmüş olur.

Qeyri-rəsmi məşğulluq gizli iqtisadiyyata aparan birbaşa yoldur. Əgər əmək münasibətləri rəsmiləşdirilməyibsə, deməli, yaradılan milli gəlir də dəqiq qeydə alınmır və vergidən yayındırılır. Beləliklə, aydın olur ki, qeyri-rəsmi məşğulluğun əsas səbəbi, əgər belə demək mümkündürsə, başlıca, bəlkə də yeganə motivasiyası vergi və sosial ödəmələrdən yayınmaqdır».

Ə.Əhmədov əlavə edib ki, qeyri-rəsmi məşğulluq nə qədər çoxdursa, rəsmi dövlət uçotundan yayındırılan iqtisadiyyatın xüsusi çəkisi də elə o qədərdir: «Qeyri-rəsmi məşğulluq bu gün əmək münasibətləri sahəsində, ümumiyyətlə iqtisadi fəaliyyət sferasında həm ən çox rast gəlinən, həm də ciddi iqtisadi problemlərə yol açan ağır qanun pozuntusudur. Araşdırmalar nəticəsində elə hüquqi şəxslər aşkar edilmişdir ki, aylıq dövriyyəsi bir neçə milyon manata çatmasına baxmayaraq, rəsmi qeydiyyatdan keçmiş cəmi bir neçə işçisi var. Hətta iqtisadi fəaliyyət göstərən elə təşkilatlar var ki, böyük maliyyə dövriyyəsinə rəğmən, ümumiyyətlə, işçisi yoxdur. Əmək münasibətlərinin rəsmiləşdirilməməsi işçini tamamilə hüquqsuz vəziyyətə salır. Bu cür insanlar dövlət tərəfindən təmin edilən sosial müdafiə sistemindən özlərini kənarda qoyurlar. Onların qanuni yolla məzuniyyətdən istifadə etmək, xəstələndikdə haqqı ödənilən müalicə almaq hüquqları, demək olar ki, itirilir. Bir sözlə, onların sosial hüquqlarının qorunması ciddi problemlərlə üzləşir.

Qanunvericilikdə ciddi maliyyə pozuntularına görə kifayət qədər sərt sanksiyalar nəzərdə tutulur və mən istəməzdim ki, hüquqi şəxslərin buraxdığı qanun pozuntularını onların özləri deyil, hüquq-mühafizə orqanları aradan qaldırmalı olsun».

Ə.Əhmədovun sözlərinə görə, bəzi işəgötürənlər mühasibat uçotu sahəsində olan boşluqlardan faydalanaraq, xalq arasında yayılmış terminologiyadan istifadə etsək, «qara mühasibata» əl atırlar. «Qara mühasibatın» mahiyyəti ondan ibarətdir ki, işçiyə verilən əməkhaqqının az bir hissəsi rəsmiləşdirilir, çox hissəsi isə rəsmiləşdirilmir. Nəticə etibarilə həm hüquqi şəxs, həm də işçi vergi və məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınmış olurlar: «Bu gün vergidən, ələlxüsus məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınan insanlar bilərəkdən qocalıqda özlərini pensiya hüququndan məhrum edirlər. Təhlillər göstərir ki, ölkədə qeyri-rəsmi məşğulluq kifayət qədər geniş yayılmışdır. Bu tipli qanun pozuntularına tikinti ilə yanaşı, ticarət, iaşə, nəqliyyat, xidmət sahələrində də tez-tez rast gəlinir».

Qeyri-rəsmi məşğulluqda vergi dərəcəsi amilinin önə çəkilməsinə münasibət bildirən Baş nazirin müavini deyib ki, Azərbaycanda vergi dərəcələrinin çox və ya həddən çox olması iddiası ilə razılaşmaq mümkün deyil: «İnternet əsrində bu cür iddiaların nə qədər əsaslı olduğunu sübuta yetirmək çox asandır. İş adamlarının böyük hissəsinin qeyri-rəsmi məşğulluğu əsas etibarilə vergi və məcburi dövlət sosial sığorta haqlarının çoxluğu ilə əsaslandırmağa üstünlük verməsinin səbəbi ondan ibarətdir ki, nəticə etibarilə problemi aradan qaldırmağın əsas yolunun vergi dərəcələrinin azaldılmasından keçməsi barədə məntiq ortaya qoyulsun. Bununla əlaqədar olaraq, iş adamları vergi dərəcələrinin azaldılmasını qeyri-rəsmi məşğulluğun aradan qaldırılması kontekstində əsas müzakirə predmetinə çevirməyi təklif edirlər. Mənə belə gəlir ki, qeyri-rəsmi məşğulluğun mövcudluğunda vergi dərəcəsi amili varsa da, o, əsas, həlledici yerdə durmur. Bütün təhlillərin ortaya qoyduğu həqiqət budur ki, qeyri-rəsmi məşğulluğun geniş yayılmasının əsas motivi vergi və sosial ödəmələrdən yayınmaq hesabına daha çox mənfəət əldə etməkdir. Digər ölkələrin təcrübəsi də həmin həqiqəti təsdiq edən əlavə sübut qismində nəzərdən keçirilə bilər. Belə olan halda, qeyri-rəsmi məşğulluğa qarşı mübarizədə vergi dərəcələrinin aşağı salınmasını əsas və yeganə vasitə kimi təqdim etməyi səmərəli təklif hesab etmək mümkün deyil».

Ə.Əhmədovun fikrincə, ən faydalı, düzgün və yeganə yanaşma o olardı ki, vergi dərəcələri ilə əlaqədar aktiv diskussiyalar vergi bazasının genişlənməsi əsasında və onun nəticəsi olaraq müzakirə predmetinə çevrilsin: «Bu, həlledici dərəcədə sahibkarların, daha dəqiq ifadə etsəm, qeyri-rəsmi məşğulluqdan fayda götürən iş adamlarının seçimindən asılıdır. Başqa sözlə desək, vergi dərəcələri ilə əlaqədar diskussiyaların başlanması üçün ilkin şərt qeyri-rəsmi məşğulluqdan imtina edilməsi və vergi bazasının genişləndirilməsi hesab edilməlidir. Həm işçinin, həm sahibkarın, həm də dövlətin maraqlarına cavab verən bu cür yanaşma qeyri-rəsmi məşğulluğa qarşı mübarizənin uğur qazanmasının ən etibarlı təminatı sayıla bilər».

Baş nazirin müavini qeyd edib ki, əmək münasibətləri sahəsində yaranmış vəziyyətə dövlət biganə qalmayacaq. Ölkə Prezidentinin sərəncamı bir daha sübut edir ki, Azərbaycan dövləti ən qısa vaxtda əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində mövcud problemləri aradan qaldırmaq, işçilərin sosial hüquqlarının qorunması sahəsində əlavə zəruri addımları atmaq niyyətindədir. İnsanların sosial hüquqlarının qorunması onların sosial müdafiəsi qədər böyük dəyər kəsb edir və dövlətimiz bu işdə seyrçi mövqeyində qalmaq niyyətində deyil. İstər qanunvericiliyin təkmilləşdirilməsi, istər inzibatçılığın gücləndirilməsi, istər qanun pozuntularına qarşı qanuni sanksiyaların sərtləşməsi, istərsə də geniş təbliğat aparılması sayəsində əmək münasibətləri sahəsində bütün problemlərin aradan qaldırılmasına nail olunacaqdır.

**Bütün təhlillərin ortaya qoyduğu həqiqət budur ki, qeyri-rəsmi məşğulluğun geniş yayılmasının əsas motivi vergi və sosial ödəmələrdən yayınmaq hesabına daha çox mənfəət əldə etməkdir**




**Qeyri-rəsmi məşğulluq gizli iqtisadiyyata aparan birbaşa yoldur. Əgər əmək münasibətləri rəsmiləşdirilməyibsə, deməli, yaradılan milli gəlir də dəqiq qeydə alınmır və vergidən yayındırılır**

**Rəşad SADIQOV**

# İslahatlar geniş müzakirə edilir

İyunun 9-da Vergil r Nazirliyinin T dris M rk zind «Vergi islahatlarının hüquqi v iqtisadi aspektl ri: n tic l r v inkişaf istiqam tl ri» mövzusunda «d yirmi masa» keçirilib. T dbird İqtisadiyyat Nazirliyinin, AMEA-nın İqtisadiyyat İnstitutunun, Az rbaycan Dövl t İqtisad Universitetinin nümay nd l ri, Vergil r Nazirliyinin müvafiq strukturlarının, razi vergi orqanlarının, rayon vergil r şöb l rinin v T dris M rk zinin t msilçil ri iştirak edibl r.

Tədbiri giriş sözü ilə Tədris Mərkəzinin rəisi Əli Həsənov açaraq vergi qanunvericiliyində və digər normativ-hüquqi aktlarda edilən dəyişikliklər, vergi islahatlarının praktiki tətbiqi zamanı qarşıya çıxan problemlər, vergi sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Bildirib ki, vergi sistemində aparılan islahatlar müasir iqtisadi çağırışların tələblərindən irəli gəlir və qanunvericiliyin təkmilləşdirilməsinə,vergi inzibatçılığının səmərəliliyinin gücləndirilməsinə, vergi yükünün aşağı düşməsinə şərait yaradır.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva ölkəmizin dinamik inkişafından, qeyri-neft sektorunda müşahidə olunan irəliləyişlərdən və vergi tənzimlənməsi ilə bağlı dövlətin həyata keçirdiyi islahatlardan danışıb. Qeyd edilib ki, Vergi Məcəlləsində vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı çox mühüm maddələrə dəyişikliklər olunub, sahibkarlığın daha səmərəli fəaliyyətinə geniş imkanlar yaradılıb. Baş direktor çıxışında diqqəti ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar tətbiq edilən vergi güzəştləri, sahibkarların hüquqlarının qorunması, səyyar və kameral vergi yoxlamalarının optimallaşdırılması ilə əlaqədar görülən işlər, elektron auditin tətbiqi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən olunması, vergi risklərinin idarə edilməsi ilə bağlı məsələlərə də yönəldib. Vergi islahatlarının digər istiqamətlərindən danışan S.Musayeva «Milli iqtisadiyyatın inkişafı üzrə Strateji yol xəritəsi»ndə Vergilər Nazirliyi ilə bağlı müəyyən edilmiş prioritetlərə diqqət çəkərək, nazirliyin müvafiq Tədbirlər Planı hazırladığını və artıq qarşıya qoyulmuş tapşırıqların icrasına başlandığını vurğulayıb.

Vergilər Nazirliyinin Hüquq departamentinin baş direktorunun müavini Anar Rzayev vergi islahatlarının həyata keçirilməsinin hüquqi aspektlərindən bəhs edib. O, borclu vergi ödəyicilərinə aid vergi risklərinin qruplar üzrə müəyyən edilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, könüllü vergi açıqlaması, vergi ödəyicilərinə münasibətdə ünvanlı qərarların qəbulu, vergitutma bazasının genişləndirilməsi və Vergi Məcəlləsinin 89 və 90-cı maddələrində edilmiş dəyişikliklərlə əlaqədar məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.



Müzakirə zamanı vergi islahatlarının strateji hədəfləri, islahatların hüquqi və praktiki aspektləri mövzusunda məruzələr olub, geniş fikir mübadiləsi aparılıb

«Dəyirmi masa»da çıxış edən İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktor müavini, professor Rövşən Quliyev və İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun əməkdaşı, professor Vahid Abbasov vergitutmanın xüsusiyyətlərindən, ölkədə həyata keçirilən fiskal və vergi siyasətinin əhəmiyyətindən, vergi güzəştlərinin sahibkarlığın inkişafına təsirindən, uçot sisteminin təkmilləşdirilməsindən bəhs ediblər.

Tədbirdə nazirliyin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov, Vergilər Nazirliyi yanında Bakı şəhər Lokal Gəlirlər Departamentinin baş direktorunun müavini Telman Hüseynli, həmin departamentin Apelyasiya idarəsinin direktoru Vüqar Əliyev, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsinin rəis müavini Miri Bağırov, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsinin rəis müavini İlqar Paşayev və digərləri çıxışlarında ƏDV ödəyiciləri tərəfindən elektron-qaimə fakturanın tətbiqi, elektron audit sisteminin genişləndirilməsi, vergi uçotu, vergi nəzarəti, şəffaf vergi partnyorluğu sisteminin əhəmiyyəti və vergi islahatlarının səmərəliliyi barədə öz fikir və mülahizələrini bölüşüblər. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı səlahiyyətli şəxslər tərəfindən müvafiq maddələrin şərhi verilib, bəzi iqtisadi anlayışlara aydınlıq gətirilib, tədbir iştirakçılarının sualları cavablandırılıb.

**E.CƏFƏRLİ**




## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Mehmanxanalarda pul hesablaşmaları

***Mehmanxanalarda nəzarət-kassa aparatı və POS-terminal quraşdırılmalıdırmı?***

Vergi Məcəlləsinin (VM) 16.1.8-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsilə həyata keçirmək vəzifəsi yalnız pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə aid edilir. Məcəllənin 16.1.9-cu maddəsi ilə isə nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək vergi ödəyicisinin vəzifəsi kimi müəyyən edilmişdir.

Nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunun 17-ci maddəsinə uyğun olaraq, POS-terminalların quraşdırılması və (və ya) «Elektron ticarət haqqında» Qanunun 5.1-ci maddəsinə uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə, həmin Qanuna əsasən istehlakçıların elektron ödəniş etmək imkanını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları»nın 1.2-ci bəndinə əsasən, dövriyyəsindən və ərazisindən asılı olmayaraq, mehmanxanalarda POS-terminal quraşdırılmalıdır.

Qeyd olunanlara əsasən: Mehmanxanaların fəaliyyəti nağd pul hesablaşmaları nəzarət-kassa aparatı vasitəsilə həyata keçirilən fəaliyyət növlərinə aid edilmədiyindən, əhali ilə pul hesablaşmaları aparılan zaman müştəridən qəbul edilən nağd pul vəsaitinə görə onlara ciddi hesabat blankı olan qəbz təqdim edilməlidir. Eyni zamanda, müştərilərlə nağdsız hesablaşmaların aparılması məqsədilə, dövriyyəsindən və ərazisindən asılı olmayaraq, mehmanxanalarda POS-terminal quraşdırılmalıdır.

## Sahibkarlıq subyektlərinə dövlət dəstəyi gücləndirilir

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sosial məsələlər, sağlamlıq və davamlı inkişaf üzrə komitəsinin Milli Məclisdə keçirilən «Avropa Sosial Xartiyası prizmasından Azərbaycanda sosial, iqtisadi hüquqların möhkəmləndirilməsi» mövzusunda seminarda deyib ki, Azərbaycanda 2017-ci ilin birinci rübü ərzində 103 sahibkara 21,3 milyon manat güzəştli kredit verilib. Həmin vəsait hesabına 400-dən çox yeni iş yeri yaradılacaq: «Bu il ərzində sahibkarlara ümumilikdə 150 milyon manat güzəştli kreditlərin verilməsi planlaşdırılır. Sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində aparılan islahatların nəticələrinə əsasən, Azərbaycan 190 ölkə arasında 62-ci pillədə qərarlaşıb, dünyada üç və daha çox islahat aparan 29 ölkədən biri olub».

## Bir sıra qanunlara əlavə və dəyişikliklər müzakirə olunub

İyunun 6-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında 2016-cı il dekabrın 16-da qəbul edilmiş «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi ilə əlaqədar müxtəlif sahələr üzrə hesablaşmalar zamanı ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi ilə bağlı bəzi qanunlara dəyişikliklərin edilməsi müzakirə olunub. İclasda Əmək Məcəlləsinə, eləcə də «Turizm haqqında», «Təhsil haqqında», «Sosial müavinətlər haqqında», «Sosial sığorta haqqında», «Məşğulluq haqqında», «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında», «Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında», «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında», «Sığorta fəaliyyəti haqqında», «İcbari sığortalar haqqında», «Əmək pensiyaları haqqında», «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» qanunlara təklif olunan düzəlişlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, dəyişikliklərin əksəriyyəti uyğunlaşdırma məqsədi daşıyır və qanun layihələri qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən parlamentə təqdim olunub.

Müzakirələrdən sonra gündəliyə daxil olan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# HÖP - nağdsız ödənişlərin etibarlı platforması

«Hökumət ödəniş portalı» (HÖP) vasitəsilə dövlət büdcəsinə ödəniləcək vəsaitlər vahid platforma üzərindən həyata keçirilir. Portalda büdcə, kommunal, «ASAN xidmət», bələdiyyə, rabitə, təhsil, sığorta, ipoteka və digər ödənişləri ödəmək mümkündür. HÖP-ün infrastrukturundan istifadə olunmaqla ödənişlər qəbul edilərkən büdcə təsnifatının kodu, büdcə səviyyəsinin kodu və büdcə təşkilatının kodu kimi vacib rekvizitlər avtomatik rejimdə portal tərəfindən müəyyənləşdirilir və ödəniş tranzaksiyasına əlavə edilir. Eyni zamanda, büdcə vəsaitinin toplanmasına cavabdeh olan dövlət orqanının müvafiq tabeli qurumunun rekvizitləri də ödəniş məlumatlarının tərkibinə daxil edilir. Bununla da ödənişlərin qəbul olunması prosesi sadələşdirilir və baş verən səhvlərin sayının minimuma endirilməsi təmin edilir. Portalın fəaliyyəti «Elektron hökumət» quruculuğunun inkişaf etdirilməsi istiqamətində dövlət orqanları tərəfindən göstərilən xidmətlər üzrə rüsumlara görə ödənişlərin real vaxt rejimində elektron formada qəbulunu təmin edir, ölkə iqtisadiyyatında nağdsız ödənişlərin həcminin artırılmasına töhfə verir.

HÖP-ə inteqrasiya olunmuş dövlət orqanları üzrə ümumilikdə 220-dən çox xidmətlə bağlı ödənişlər nağdsız qaydada qəbul edilir. Hazırda dövlət qurumlarından HÖP-ə 7 ali təhsil müəssisəsi, bələdiyyə orqanları, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, DSMF, Energetika Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN), Əmlak Məsələləri Dövlət Komitəsi qoşulublar. Bunlardan başqa, «Azəriqaz» İB, «Azərişıq» ASC (smart), «Azəristiliktəchizat» ASC, «Azərsu» ASC, «Azercell», «Azerfon», «Bakcell», Milli Sertifikat Xidmətləri Mərkəzləri, stasionar telefon operatorları kimi kütləvi xidmət müəssisələri də HÖP-dən istifadə edir.

HÖP vasitəsilə ödənişləri nağd formada bank və ya poçt bölmələrində, eləcə də ödəniş terminallarında həyata keçirmək mümkündür. HÖP-ə qoşulmuş ödəniş təşkilatları ödəniş terminalları şəbəkəsindən istifadə etməklə rahat və sürətli şəkildə borclar haqqında məlumat ala və ödənişləri apara bilərlər.




Portalda ödəniş kartları vasitəsilə də ödəniş etmək mümkündür. «Şəxsi virtual kabinet»ə daxil olmaqla inzibati qaydada müəyyənləşdirilmiş müddət ərzində aparılan ödənişlərin və müvafiq təşkilatlardan daxil olmuş bildirişlərin tarixini də izləmək mümkündür.

HÖP-ə qoşulmuş kart-prosessinq mərkəzlərində xidmət olunan bankların bankomat (ATM) şəbəkəsində və bankın HÖP ilə inteqrasiya olunmuş elektron bankçılıq xidmətində borcları öyrənmək və ödənişləri həyata keçirmək olar.

Qeyd edək ki, Nazirlər Kabinetinin 28 fevral 2009-cu il tarixli qərarı ilə «Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları»na edilmiş əlavələrə əsasən, HÖP-ün çıxarışları ciddi uçot blankına bərabər tutulur.

**Aytən NƏBİYEVA**







# Nağdsız hesablaşmalar fəaliyyətin şəffaflığını təmin edir

Keçən ilin sonunda «Nağdsız hesablaşmalar haqqında» Qanun qəbul edilərkən Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirmək kimi vəzifələrin yerinə yetirilməsi nəzərə alınmışdı. Qanunun nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı müddəası ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 mindən artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minmişdir. Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.



İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, inkişaf etmiş ölkələrdə nağd hesablaşmalardan çox nadir hallarda istifadə olunur və biz də bu mərhələyə gəlib çatmalıyıq: «Son illərdə ölkəmizdə bu istiqamətdə az iş görülməyib. Bu gün əksər müəssisələrimiz hesablaşmaları nağdsız qaydada aparırlar. Nağdsız hesablaşmalar iqtisadiyyatda qeyri-rəsmi dövriyyənin qarşısını almaqla yanaşı, vergidən yayınma hallarının da aradan qaldırılmasına şərait yaradır. Əgər inkişaf etmiş dövlətlərin təcrübəsini dərindən araşdırsaq, nağdsız hesablaşmaların yüksək səviyyədə təşkil edildiyi ölkələrdə kölgə iqtisadiyyatının və vergidən yayınma hallarının daha az şahidi olarıq. Bu səbəbdən də «Nağdsız hesablaşmalar haqqında» Qanun bizdə də bu sahədəki işlərin yüksək səviyyədə təşkilinə hüquqi baza yaradır.

Hər bir yenilik kimi, nağdsız hesablaşmalara keçməyə özünü tam hazır saymayan müəssisə və təşkilatlar tərəfindən müəyyən narahatlıq müşahidə edilir. Bu, təbii bir haldır. Vaxtilə maliyyə sistemində xəzinədarlığın qurulması zamanı da bəzi müəssisə və təşkilatlar bu yeniliyi birmənalı qarşılamırdılar. Lakin xəzinədarlıq quruldu və köhnə maliyyələşmə qaydaları tezliklə unuduldu. Bu gün nağdsız hesablaşmalarla bağlı eyni hal təkrar olunur. Hər bir müəssisə və təşkilat rəhbəri bilməlidir ki, əgər hesablaşmaların qanunla nəzərdə tutulan istisnalardan artıq məbləğdə nağd qaydada aparılmasına təkid edirsə, bu addımla öz fəaliyyətinin düzgünlüyünə şübhə yaradır. Nağdsız hesablaşmalar fəaliyyətin şəffaflığını təmin edən vasitədir. Təcrübə göstərir ki, qanun pozuntularının əksəriyyəti nağd hesablaşmalarla müşayiət olunan əməliyyatlar zamanı baş verir. Hesab edirəm ki, aidiyyəti dövlət qurumları, Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası hər bir müəssisə və təşkilatın qısa zaman ərzində bu qaydada hesablaşmalara keçə bilməsi üçün zəruri hazırlıq işlərini tezliklə başa çatdırmalıdırlar. Yeni qaydada hesablaşmalara keçməkdə çətinlikləri olan müəssisə və təşkilatlara konkret vaxt müəyyən olunmalı və bu barədə onlara xəbərdarlıq göndərilməlidir».

> Hər bir müəssisə və təşkilat rəhbəri bilməlidir ki, əgər hesablaşmaların qanunla nəzərdə tutulan istisnalardan artıq məbləğdə nağd qaydada aparılmasına təkid edirsə, bu addımla öz fəaliyyətinin düzgünlüyünə şübhə yaradır

İqtisadçı ekspert Vüqar Bayramov da məsələyə münasibət bildirərək qeyd edib ki, nağdsız ödənişlər artarsa, bu, dövlətə maliyyə vəsaitlərinin hərəkətini izləməyə imkan verər: «Nağdsız ödənişlər vergidən yayınmanın qarşısının alınması üçün də olduqca vacibdir. Azərbaycanda plastik kartların sayı çox olsa da, biznesdə və insanlar arasında nağdsız ödənişlərin həcmi hələ o qədər də yüksək deyil».

V.Bayramov Azərbaycanda nağdsız ödənişlərlə bağlı təşviqedici, eyni zamanda inzibati metodların tətbiqinə ehtiyac olduğunu bildirib: «Bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi, bizdə də nağd ödənişlərə limitlərin müəyyənləşdirilməsi məqsədəuyğundur. İnzibati metod kimi POS-terminallardan istifadəyə nəzarətin gücləndirilməsinə, qanunvericilikdəki boşluqların aradan qaldırılmasına ehtiyac var. Çünki bəzi mağaza, kafe, restoranda POS-terminalın işləmədiyi bəhanəsi ilə plastik kartı qəbul etmirlər. Belə hallar üçün cəza və cərimələrin artırılmasına ehtiyac var. Bu, həm də müştərinin istehlakçı hüquqlarının pozulması deməkdir. İstisnasız olaraq, bütün biznes obyektlərində POS-terminalların quraşdırılması və istifadəyə nəzarətin gücləndirilməsi vacibdir».

> Nağdsız hesablaşmalar iqtisadiyyatda qeyri-rəsmi dövriyyənin qarşısını almaqla yanaşı, vergidən yayınma hallarının da aradan qaldırılmasına şərait yaradır

V.Bayramov nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə öz təkliflərini də irəli sürüb:

♦ Bir sıra inkişaf etmiş ölkələrin uğurla tətbiq etdiyi praktikanı nəzərə alaraq, Azərbaycanda da nağd hesablaşmaların minimallaşdırılması istiqamətində inzibati metodlardan istifadə edilməsi mümkündür. Birinci mərhələdə dəyəri 1000 manatdan artıq olan məhsulların alğı-satqısının nağd aparılması qadağan edilməli və bu zaman yalnız nağdsız ödənişlərdən istifadəyə icazə verilməlidir. Sonrakı mərhələlərdə bu göstəricinin pilləli olaraq 500 manatadək azaldılması mümkündür;

♦ Nağdsız hesablaşmaların stimullaşdırılması məqsədilə müəyyən dövr üçün bonus sistemi tətbiq edilməlidir. Bu zaman plastik kartlar vasitəsilə alğı-satqı edənlərin ödədiyi vəsaitin bir qismi (məsələn, 3 faizi) sonradan həmin şəxsin hesabına qaytarıla bilər. Bu sistem ötən əsrin 90-cı illərində qardaş Türkiyədə çox uğurla tətbiq edilib. Təşviqedici məqsəd daşıyan bu üsul vətəndaşlarda plastik kartlardan istifadə ənənəsi formalaşdıra bilər;

♦ Banklar tərəfindən müştərilərə kredit kartları təqdim edilərkən bu kartların kredit imkanlarının nağd olaraq istifadə edilməsini məhdudlaşdırmaqla istifadəçini nağdsız ödənişə cəlb edər;

♦ Vergilər Nazirliyinin dəstəyi ilə kütləvi informasiya vasitələrində nağdsız ödənişlərin üstünlüklərinin təbliğini genişləndirmək və vətəndaşların maarifləndirilməsi yolu ilə isitifadəçi sayını artırmaq olar;

♦ Bütün ölkə ərazisində ödənişin bu növünü həyata keçirmək imkanı yaradan texnoloji təchizat vasitələri təmin edilməklə nağd pul daşıma zərurətini aradan qaldırmaq olar.

Bank mütəxəssisi Yusif Abdullayevin sözlərinə görə, nağdsız hesablaşmaların həcminin artırılması üçün əsas alətlərdən biri olan bankların və bu sektora nəzarət edən dövlət qurumunun üzərinə böyük iş düşür: «Nağd hesablaşmalar vergi və digər öhdəliklərdən yayınmağa imkan verdiyi üçün həvəsləndirmə, təbliğat, stimullaşdırma kimi alətlər səmərəli işləyə bilmir. Çünki əksər bazar iştirakçıları hesablaşmaların nağd yolla aparılmasını öz məqsədləri üçün istifadə edirlər. Ona görə də inzibati tədbirlər gücləndirilməlidir. Nağd hesablaşmalara sərt limitlər müəyyən olunmalı və bu limitlərin pozulması hallarının qarşısını almaq üçün iri məbləğdə cərimə və sanksiyalar işə salınmalıdır. Hazırda Maliyyə Bazarlarına Nəzarət Palatasının bu istiqamətdə fəaliyyəti hiss olunsa da, real nəticə əldə etmək üçün daha ciddi tədbirlər həyata keçirilməlidir».

**Fəxriyyə İKRAMQIZI**

# Avropa İttifaqı ilə Azərbaycan arasında iqtisadi əlaqələr genişlənir

Ötən həftə Bakıda üçüncü Azərbaycan-Avropa İttifaqı (Aİ) biznes forumu keçirilmişdir. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi tərəfindən Alman-Azərbaycan Xarici Ticarət Palatası və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə əməkdaşlıq çərçivəsində təşkil olunan forumun məqsədi Aİ və Azərbaycan şirkətləri arasında şəbəkələşməni və əlaqələri artırmaq, hökumət nümayəndələri ilə biznes mühitini, onunla bağlı çağırış və imkanları müzakirə etmək idi. Tədbirdə dövlət rəsmiləri, beynəlxalq təşkilatların, səfirliklərin, ticarət palatalarının təmsilçiləri, eləcə də işgüzar dairələrin nümayəndələri iştirak etmişlər.

### Strateji Tərəfdaşlıq Sazişi hazırlanır

Tədbirdə çıxış edən ***Azərbaycan Respublikasının Aİ ilə əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri, iqtisadiyyat naziri Şahin Mustafayev*** bildirmişdir ki, respublikamızın xarici siyasətində Aİ ilə əməkdaşlığın inkişaf etdirilməsi mühüm istiqamətlərdəndir və bu əlaqələr həm siyasi, həm də enerji, ticarət, investisiyalar və s. kimi iqtisadi sahələri əhatə edir: «Azərbaycan Prezidenti İlham Əliyev Brüsselə səfəri çərçivəsində Aİ-nin rəhbər vəzifəli şəxsləri ilə görüşlər keçirmiş və müzakirələr aparmışdır. Hazırda Strateji Tərəfdaşlıq Sazişi hazırlanır və artıq bununla bağlı Aİ Parlamenti tərəfindən Avropa Komissiyasına mandat verilmişdir. Bu istiqamətdə üç işçi qrup fəaliyyət göstərir».

Qeyd edilmişdir ki, 2016-cı ildə Aİ-nin Azərbaycanın xarici ticarətindəki payı 35%, 2017-ci ilin 4 ayında isə 38% təşkil etmişdir: «Son 10 ildə Aİ Azərbaycanda əsas kapitala təqribən 20 milyard dollar investisiya qoymuşdur. Azərbaycanda Aİ ölkələrinin 1300-dən çox şirkəti fəaliyyət göstərir. 23 üzv ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması, 17 üzv ölkə ilə sərmayələrin təşviqi və qorunması sazişləri, 7 üzv ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri imzalanmışdır, 13 üzv ölkə ilə hökumətlərarası komissiya fəaliyyət göstərir».

**Avropa İttifaqı Azərbaycan iqtisadiyyatına təxminən 7 milyard avro birbaşa sərmayə qoymuşdur və bu, kifayət qədər böyük göstəricidir**



**2017-ci ilin 4 ayında Azərbaycanda qeyri-neft sənayesi 2,8%, kənd təsərrüfatı 3,2%, ticarət dövriyyəsi 11,5%, ixrac təqribən 41%, qeyri-neft ixracı isə 23% artmışdır**

### Azərbaycan Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır

İqtisadiyyat nazirinin sözlərinə görə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır, enerji layihələri üzrə Aİ ölkələri ilə əməkdaşlıq edir: «Cənub Qaz Dəhlizi» layihəsi enerji sahəsində strateji əməkdaşlığımızın gözəl nümunələrindəndir. Bu layihə çərçivəsində «Şahdəniz 2» üzrə işlərin 93%-i, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi üzrə 85%-i, TANAP üzrə 72%-i, TAP üzrə 42%-i yerinə yetirilmişdir. Azərbaycan Aİ ilə tvinninq, TAIEX, SIGMA, texniki dəstək, büdcəyə dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir və bu əməkdaşlıq nəticəsində 1992-ci ildən bəri respublikamıza 582 milyon avro məbləğində yardım göstərilmişdir». Bildirilmişdir ki, hazırda dünya iqtisadiyyatında gedən neqativ proseslərdən qaynaqlanan xarici mənfi təsirlərin qarşısının alınması və dayanıqlı inkişafın təmin olunması məqsədilə mövcud çağırışların tələblərinə uyğun iqtisadi islahatlar davam edir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası, Stateji Yol Xəritələri və müxtəlif proqramların qəbul edilməsi də bu qəbildəndir.

Son zamanlar Azərbaycanda həyata keçirilən kompleks islahatları diqqətə çatdıran Ş.Mustafayev ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsini, biznes mühitinin yaxşılaşdırılmasını, sahibkarlığın inkişafını, tranzit imkanlarından səmərəli istifadəni, ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsini, qeyri-neft ixracının artırılmasını, ixracın diversifikasiyasının prioritetliyini vurğulamışdır. Bildirmişdir ki, həyata keçirilən islahatlar çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb, lisenziyaların sayı kəskin şəkildə azaldılmış, inzibati prosedurlar sadələşdirilmiş, elektron xidmətlər, sahibkarlığın inkişafına dəstək mexanizmləri genişləndirilmişdir: «Sənaye parklarına indiyədək 800 mln. dollar investisiya qoyulmuş, sahibkarlara 154 investisiya təşviqi sənədi verilmişdir. Bütün bunlar iqtisadiyyata 1,5 milyard manat məbləğində sərmayə qoyuluşuna imkan yaratmışdır. Bu ilin 4 ayında ölkədən keçmiş tranzit yüklərin həcmi 23% artmışdır. Artıq Azərbaycanın Rusiya, Çin və BƏƏ-rinin 300-dən çox şirkəti Azərbaycanda biznes sahəsində fəaliyyət göstərir». Qeyd edilmişdir ki, Aİ peşə təhsili ilə bağlı ölkəmizə dəstək göstərməyə hazırdır. Kənd təsərrüfatı, bölgələrin inkişafı, rəqəmsal bazarın formalaşması, insanlar arasında əlaqələrin genişləndirilməsi də əsas prioritetlərdəndir.

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard*** isə vurğulamışdır ki, sayca üçüncü olan bu biznes forumu, digər forumlar kimi, Aİ şirkətləri ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi, həmçinin ölkə bazarını öyrənmək, qeyri-neft sektoru sahəsinin inkişafı baxımından da çox gözəl imkanlar açacaq. Strateji Tərəfdaşlıq Sazişinə toxunan M.Mard bu sənədin həm Aİ, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir: «Azərbaycanla imzalanacaq yeni sazişdə geniş çeşidli fəaliyyət sahələri bir araya gələcəkdir ki, Aİ bu sahələrdə Azərbaycanın mühüm tərəfdaşıdır. Yeni sazişdə iqtisadi fəaliyyət dairəsi əhəmiyyətli şəkildə genişlənəcəkdir. Qarşılıqlı iqtisadi münasibətlərin artıq çox güclü olduğunu nəzərə alsaq, bu sazişin əməkdaşlığın genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyimizi ifadə edə bilərik».

### Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır

***Avropa Komissiyasının qonşuluq siyasəti və Avropa İttifaqının genişləndirilməsi ilə bağlı danışıqlar üzrə Baş Direktorluğunun Şərq Tərəfdaşlığı Departamentinin direktoru Lourens Meredit*** çıxışında bildirmişdir ki, Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır: «Avropa İttifaqı Azərbaycan iqtisadiyyatına təxminən 7 milyard avro birbaşa sərmayə qoymuşdur və bu, kifayət qədər böyük göstəricidir. Qeyri-neft sektoruna qoyulan sərmayənin məbləği 2,5 milyard avro təşkil edir. Hazırda Aİ ölkələyə ticatət nümayəndələri təyin olunmuşdur. Aİ ölkələrinə də ölkəmizin ticarət nümayəndələrinin təyin olunması nəzərdə tutulur».

Qeyd edilmişdir ki, görülən tədbirlər nəticəsində iqtisadiyyatın dayanıqlığının artması və yeni şəraitə uyğunlaşdırılması prosesi uğurla davam etdirilmiş, nəticədə 2017-ci ilin 4 ayında Azərbaycanda qeyri-neft sənayesi 2,8%, kənd təsərrüfatı 3,2%, ticarət dövriyyəsi 11,5%, ixrac təqribən 41%, qeyri-neft ixracı isə 23% artmışdır. Bu dövrdə valyuta ehtiyatları 1,3 milyard dollar çoxalaraq 39 milyard dollar təşkil etmişdir. Bu il aprelin 1-i tarixinə valyuta ehtiyatları xarici borcdan 3,2 dəfə çox olmuşdur. Azərbaycan «Qlobal rəqabətlilik hesabatı»nda 138 ölkə arasında 37-ci, MDB ölkələri arasında isə 1-ci yerdə qərarlaşmışdır.

Azərbaycandakı siyasi sabitliyin, zəngin təbii ehtiyatların və iqtisadi potensialın, yaradılmış əlverişli biznes və investisiya mühitinin, müasir infrastrukturun, əlverişli coğrafi mövqeyin, ölkəmizin etibarlı tərəfdaş olmasının, insan kapitalının inkişafının investisiya qoyuluşu üçün cəlbediciliyini vurğulayan nazir bildirmişdir ki, Aİ dövlətlərinin respublikamızda yaradılmış sənaye parklarına investisiya qoya bilmələri üçün gözəl şərait yaradılmışdır. Bundan başqa, sənaye, kənd təsərrüfatı, İKT, turizm, təhsil, səhiyyə sahələrində də Aİ ilə əməkdaşlıq imkanları kifayət qədər genişdir.

### İslahatlar nəticəsində inflyasiya nəzarət olunan həddə endirilib

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı*** çıxışında bildirmişdir ki, ölkə başçısının elan etdiyi iqtisadi islahatlar kursu Azərbaycan iqtisadiyyatının 1996-cı ildən başlayan tsiklinin yeni mərhələyə keçidini və yeni iqtisadi model quruculuğunu təmin edir: «2016-cı ilin əvvəlindən bu günə qədər dövlət başçısının qəbul etdiyi islahat aktlarının sayı 150-ni keçir ki, bu da özlüyündə iqtisadiyyatın inkişafı üçün 500 tapşırıq deməkdir. İslahatlar ili kimi yadda qalacaq ötən ildə qəbul edilən Strateji Yol Xəritələri iqtisadi siyasətin sistemli, balanslı və elmi cəhətdən əsaslandırılmış formada aparılmasını təmin edir. Cənab Prezidentin müəllifi olduğu iqtisadi islahatlar üç əsas istiqaməti əhatə edir: struktur islahatları, biznes mühitinin təkmilləşdirilməsi və insan kapitalının inkişafı. Nəticə etibarilə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, əhalinin sosial rifahı və iqtisadi təhlükəsizliyin təmin edilməsi əsas hədəflərdir».

Bildirilmişdir ki, islahatlar nəticəsində manatın sabitləşdirilməsinə, inflyasiyanın nəzarət olunan həddə endirilməsinə, qeyri-neft məhsullarının ixracatının həcminin və çeşidinin artmasına, həmçinin strateji valyuta ehtiyatlarının artımına nail olunmuşdur: «İndiki halda əsas hədəf əldə edilmiş makroiqtisadi nailiyyətlərin real sektorun orta və uzunmüddətli dayanıqlı inkişafına transformasiya edilməsidir. Xüsusilə maliyyə-bank sektorunun sağlamlaşdırılması, biznes mühitinin təkmilləşdirilməsi üzrə Tədbirlər Planının icrası və investisiya qoyuluşunun artması bu ildən başlayaraq iqtisadi artım tempinin bərpasına gətirəcək. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi dövlət-özəl sektor dialoqu üçün bir platforma olaraq islahatların inklüzivliyi, effektivliyi və kommunikasiyası istiqamətində bütün maraqlı tərəflərlə əməkdaşlığa hazırdır».

Daha sonra Azərbaycan-Avropa İttifaqı biznes forumu «Azərbaycanda iqtisadi islahatlar», «Kənd təsərrüfatı və qida», «Ətraf mühit texnologiyaları», «Nəqliyyat və logistika», «İKT və elektron ticarət» mövzularında panel iclasları ilə davam etdirilmişdir.

**Aytən NƏBİYEVA**

# Vergi işçilərinin peşə inkişafı diqqət mərkəzindədir



Portuqaliya Vergi və Gömrük rqanının dəstəyi ilə Lissabon şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) «Vergi üzrə peşəkar təlim və inkişaf forumu» keçirilmişdir. Tədbirdə təşkilata üzv ölkələrdən 57 nümayəndə ilə yanaşı, Kanada Gəlirlər Agentliyinin və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndələri də fəxri qonaq qismində iştirak etmişlər. Forumun keçirilməsində əsas məqsəd ən yaxşı təcrübələrin müəyyənləşdirilməsi məqsədilə IOTA-ya üzv ölkələr arasında bilik və təcrübələrin mübadiləsi olmuşdur.

Konkret mövzunu deyil, ümumilikdə vergi administrasiyalarının fəaliyyətinin müxtəlif sahələrini əhatə edən forumun hədəfi xarici və daxili faktorların vergi orqanında islahatlar tələbinin və əməkdaşların inkişaf ehtiyaclarına təsirinin anlaşılmasına yönəldilmişdir.

Forumda Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov, eləcə də Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin əməkdaşı Tural Babayev iştirak etmişlər.

# Sahibkarlıq subyektlərinin fəaliyyətinə qlobal miqyasda dəstək

Beynəlxalq Əmək Təşkilatının (BƏT) üzv dövlətlərinin hökumət nümayəndələri və sosial tərəfdaşlarının iştirakı ilə Cenevrədə Beynəlxalq Əmək Konfransının 106-cı sessiyası keçirilmişdir.

Sessiyada çıxış edən Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev tədbir iştirakçılarının diqqətini qaçqınlar məsələsinə yönəldərək demişdir: «Qarabağ məsələsi də daxil olmaqla regional münaqişələrə daha həssas yanaşma olmalı, müharibələr nəticəsində bütün əmlakını, yaşadığı yeri itirən insanlara humanitar yardım göstərilməlidir. Ən önəmli məsələ isə qaçqınların öz torpaqlarına geri dönüşünün təmin edilməsidir. Bunun üçün isə gərək münaqişələr ədalətli həll olunsun, sülh bərpa edilsin. Bu istiqamətdə BMT-nin, BƏT-in üzərinə çox ciddi məsuliyyət düşür».

Əmək miqrasiyasını və qaçqınlığı doğuran digər bir səbəbin ölkələr, müxtəlif əhali qrupları arasında dərinləşən iqtisadi bərabərsizlik olduğunu deyən M.Musayev əlavə etmişdir ki, bu məsələnin həlli üçün də beynəlxalq təşkilatlar istiqamətverici rol oynamalıdır. Qeyd edilmişdir ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində yoxsul ölkələrin təhsil və səhiyyə sahələrinə investisiya qoyulmalı, normal yaşayış üçün minimum infrastruktur təmin edilməlidir. Bu sahədə milli dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar, digər dövlətlər, transmilli şirkətlər, aparıcı beyin mərkəzləri birlikdə fəaliyyət göstərməlidirlər. Ticarətin və iqtisadi əlaqələrin qarşısında duran maneələr aradan götürülməli, bəşəriyyətin gələcəyi üçün effektiv əməkdaşlıq mexanizmləri yaradılmalıdır. Yoxsulluğun azaldılması, sosial bərabərsizliyin dərinləşməsinin qarşısının alınması istiqamətində BƏT inkişaf etməkdə olan ölkələrdəki biznes təşəbbüslərinə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə qlobal miqyasda dəstək olmalıdır.

Konfederasiya sədri çıxışında əhalinin məşğulluğunun təmin olunmasının ən önəmli mövzulardan biri olduğunu qeyd edərək, Azərbaycanda aparılan uğurlu iqtisadi-sosial siyasət nəticəsində müstəqilliyin ilk illərində çox yuxarı səviyyədə olan işsizliyin hazırda 5 faiz həddində olduğunu bildirmişdir: «Bu, hökumətin, işəgötürənlərin və işçilərin qarşılıqlı əməkdaşlığı nəticəsində mümkün olmuşdur. Dünyada, xüsusilə də Avropada gənclər arasında artan işsizlik bu gün bizim təhsil siyasətimizə yenidən baxmağımıza zərurət yaradır. Azərbaycanda da gənclər arasında işsizlik ümumi işsizlikdən 2 dəfə yüksəkdir. Bunu yaradan əsas səbəb isə ixtisaslar və əmək bazarı arasında mövcud uyğunsuzluqdur. Düşünürük ki, bu problem bütün dünyada mövcuddur və bunun həlli əmək bazarı tələblərinin daha yaxşı öyrənilməsindən, buna uyğun olaraq təhsilin təkmilləşdirilməsindən keçir. Biz təhsilin və gender bərabərliyinin multiplikator, sürətləndirici effektlərindən istifadə etməliyik. Qadınların iqtisadi fəaliyyətə cəlb olunması və insanlara layiqli təhsilin verilməsi yoxsulluqla, münaqişələrlə, uşaq ölümləri ilə mübarizədə ən güclü vasitədir. Təhsil və qadınların iqtisadiyyata cəlbi sabit və dayanıqlı inkişafa nail olmağımıza səbəb olacaqdır».

**Yoxsulluğun azaldılması, sosial bərabərsizliyin dərinləşməsinin qarşısının alınması istiqamətində BƏT inkişaf etməkdə olan ölkələrdəki biznes təşəbbüslərinə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə qlobal miqyasda dəstək olmalıdır**

Qeyd edilmişdir ki, iqlim dəyişikliyi də zamanın ən önəmli məsələlərindən biridir. Həm dövlətlər, həm biznes ictimaiyyəti, həm də adi vətəndaşlar bu məsələnin fərqində olmalı, alternativ enerji mənbələrindən istifadədən tutmuş təmiz suya qənaətə qədər çox geniş spektri əhatə edən bu mövzuya məsuliyyətlə yanaşmalıdır: «İqlim dəyişikliyi qlobal problemdir və buna qarşı mübarizə də qlobal xarakter daşımalıdır. Azərbaycan biznesi bu gün «yaşıl iqtisadiyyatla» əlaqədar təşəbbüsləri dəstəkləyir, istehsalatda «təbiətin dostu» texnologiyalarından, innovativ yanaşmalardan istifadə edir».

# Dörd mindən artıq lisenziya verilib

Azərbaycan Respublikası Prezidentinin «Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında» 2015-ci il 19 oktyabr tarixli fərmanına uyğun olaraq, həmin ilin noyabr ayının 2-dən etibarən lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzləri vasitəsilə verilməsinə başlanılıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, həmin tarixdən indiyədək sahibkarlıq subyektlərinə 4 mindən çox lisenziya verilib. Onların 2200-dən çoxu yeni, 1800-ü isə müddətsiz lisenziya ilə əvəz edilən lisenziyalardır. Cari ilin ötən dövründə sahibkarlara 660 lisenziya verilib. Bunun 450-si yeni, 210 lisenziya isə müddətsiz lisenziya ilə əvəz edilib.

Lisenziyalar, əsasən, əczaçılıq, özəl tibb, tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq edilən bina və qurğuların layihələndirilməsi, baytarlıq preparatlarının satışı, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri, təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması, təhsil və s. fəaliyyət sahələrinə verilib.

# Rəqəmsal bankçılığın yaradılması günün tələbidir

Müasir mərhələdə bank və ödəniş şirkətlərinin xidmətlərinin elektron inteqrasiyasının təmin olunması üçün Azərbaycanda rəqəmsal bank sisteminə keçid prosesi sürətləndirilməlidir. «Goldenpay» şirkətinin rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, hazırkı şəraitdə rəqəmsal bankın yaradılması ilə bağlı çətinliklər olsa da, bankların bir çoxunun rəqəmsal xidmətlər göstərməsi və elektron bankçılığın mövcud olması bu işin reallaşdırılmasına imkan verir. Bu gün internet-bankçılıq, SMS-bankçılıq, cash-in ödəniş terminalları, elektron arayış xidməti, SMS-kredit, 3D secure, həmçinin onlayn kredit və digər bank çeşidləri rəqəmsal bankçılığın formalaşdırılması üçün infrastrukturun olmasına dəlalət edir. Dövlət orqanları və bank ictimaiyyəti bu istiqamətdə birgə səylərini ortaya qoymaqla innovativ bankçılığın ən müasir modelini yarada bilər. Azərbaycanda rəqəmsal bankın yaradılmasının yaxın 5 ildə reallaşması mümkündür.

Bank sahəsi üzrə mütəxəssis Orxan Məmmədov bildirib ki, müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı kiberbiznesin yaradılmasını şərtləndirib. Kiberbiznesin ən mühüm platformalarından biri kimi bank sisteminin bu texnologiyalarla idarə olunması əsas tələblərdən biridir. Rəqəmsal bank innovativ iqtisadiyyatın bir elementidir və bankçılığın ən son texnologiyaların köməyi ilə elektronlaşdırılmasıdır. Rəqəmsal bankın formalaşması üçün onlayn bankçılığın geniş tətbiqi vacibdir, bankların təqdim etdiyi xidmətlərin tamamilə elektronlaşdırılması və bütün əməliyyatların rəqəmsal idarəetmə ilə tənzimlənməsi əsas meyardır. Rəqəmsal bank sistemində mobil texnologiyalar əsas yer tutduğundan rabitə operatorları, ödəniş şirkətləri və bankların birgə fəaliyyət platforması yaradılmalıdır.

Avropa ölkələrində rəqəmsal bank sistemi maliyyə xidmətlərinin göstərilməsində fəal rol oynayır: «Məsələn, Böyük Britaniyanın rəqəmsal bankı olan «Atom Bank» onlayn kredit verilməsində ən etibarlı qurum hesab olunur. Bu bankın əsas müştəriləri olan kiçik və orta sahibkarlar asanlıqla mikrokreditlər əldə edirlər. Sahibkarlar barədə zəruri məlumatların toplandığı elektron bazadan lazım olan informasiyalarla tanış olan bank üç gün ərzində kreditlərin verilməsini təmin edir. Eləcə də «Citi Bank» Mərkəzi Qərbi və Şərqi Avropanın ən yaxşı korporativ rəqəmsal bankı sayılır».



**Rəqəmsal bank sistemində mobil texnologiyalar əsas yer tutduğundan rabitə operatorları, ödəniş şirkətləri və bankların birgə fəaliyyət platforması yaradılmalıdır**

Rəqəmsal bankların ən çox maliyyə dəstəyi göstərdiyi sahələrdən biri startap layihələridir ki, onların əksəriyyəti innovativ texnologiyaların əsasında rəqabətqabiliyyətli mal və xidmətlərin əldə olunmasına xidmət edir.

O.Məmmədov hesab edir ki, rəqəmsal bankçılığın inkişaf etməsi bankların şöbə və filiallarının azalmasına səbəb ola bilər, çünki onlayn bank xidməti sayəsində müştərilərin hansısa inzibati məkana getməsinə ehtiyac qalmır. Eyni zamanda, bu sistemdə mobil bankçılığın hüdudları genişlənir və ATM-lərdən daha az istifadə olunur: «Kreditlərin ödənişi üçün ATM köşklərinə ehtiyac qalmır, bu prosesdə smart telefonlar müştəri həyatının əsas ayrılmaz hissəsinə çevrilir. Smart telefonlar bank kanalı kimi maliyyə vasitəçiliyi funksiyasını yerinə yetirir, onlardakı xüsusi proqram bank şöbələrindəki məsləhətçilərdən və ya səlahiyyətli şəxslərdən daha çox məlumat vermək imkanına malik olur. Beləliklə, vətəndaşlar heç bir yerə getmədən bank xidmətlərini mobil telefonların köməyi ilə həyata keçirir. Bu, bankların özləri üçün də sərfəlidir, onların kargüzarlıq xərclərini azaldır, müştərilərə xidmət və digər çeşidlər üzrə əlavə maliyyə xərclərinin yaranmasının qarşısını alır».

Rəqəmsal bankçılıq nağdsız ödənişlərin genişlənməsində də mühüm rol oynayır: nağd pul və çek tranzaksiyalarının sayı aşağı düşür, əməliyyatların əksəriyyəti rəqəmsal bankın əsas çeşidlərindən biri olan mobil telefonlarla həyata keçirilir, nəticədə nağd pul dövriyyəsi azalır. Rəqəmsal bankçılıqda təhlükəsizliyin təmin olunması başlıca şərtlərdəndir. Ödəniş kartlarının istifadəsi üzrə risklərə və fırıldaqçılığa qarşı təsirli mübarizə metodları olmadan bu sahədə inkişafdan söhbət gedə bilməz.

**E.CƏFƏRLİ**

# Azad iqtisadi zonalar haqqında qanun layihəsi hazırlanır

Azad iqtisadi zona - xüsusi rejim altında fəaliyyət göstərən ölkə ərazisinin bir hissəsidir. Bu zonalarda yerləşən təsərrüfat subyektləri xüsusi qanunvericiliyi özündə əks etdirən rejim altında fəaliyyət göstərirlər. Onların bu fəaliyyəti tənzimlənir ki, bu da gömrük qanunvericiliyi, vergiyə cəlbetmə, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi, bank fəaliyyəti, mülkiyyət və girov münasibətləri (o cümlədən torpağa sahiblik hüququna dair məsələlər), konsessiyanın (imtiyazın) verilməsi, azad zonanın idarə edilməsi kimi vacib məsələləri əhatə edir. Azad ticarət zonalarının müəyyənedici xüsusiyyətlərindən biri də əmək və sosial qanunvericilik aktlarının belə ərazilərdə tətbiq olunmasıdır.

Azad iqtisadi zonaların müxtəlif növ güzəşt və stimulların tətbiqi kimi xarakterik cəhətləri vardır. Xarici ticarətdə güzəştlər (ixrac-idxal rüsumlarının azaldılması və ya ləğvi, xarici ticarət əməliyyatlarının sadələşdirilməsi); fiskal güzəştlər - müəyyən fəaliyyət növlərinin vergilər baxımından stimullaşdırılması, administrativ (inzibati) güzəştlər və subsidiyaların müxtəlif formaları əhatə edən maliyyə güzəştləri bu sıraya aiddir.



Yeni yarad lacaq azad iqtisadi zona Az rbaycan d vr nd xarici investisiyan n c lbi v iqtisa bax m ndan yeni vasit rolunu oynayacaq

«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadov bildirib ki, azad ticarət zonalarının yaradılması haqqında qanun layihəsi ilin sonuna qədər Milli Məclisə təqdim olunacaq. Qeyd edilib ki, azad ticarət zonasının yaradılmasında hüquqi rejim vacib faktordur: «Hazırlanmış qanun layihəsinin dövlət ekspertizasından keçirilməsi üçün Prezident İlham Əliyevin fərmanı əsasında vitse-spiker Valeh Ələsgərovun rəhbərlik etdiyi işçi qrup yaradılıb. Üç ay ərzində razılaşma prosesi və ekspertiza gedəcək və ümid edirəm ki, ilin sonunda qanun layihəsi Milli Məclisə təqdim olunacaq».

T.Ziyadov həmçinin qeyd edib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə yük avtomobillərinin dövriyyəsi artıb: «2016-cı ildə 2015-ci illə müqayisədə yük avtomobillərinin sayında 100 faizlik artım var, 23 minə yaxın yük avtomobili Türkiyə və Mərkəzi Asiyaya və geri göndərilib. Bu ilin 4 ayı ərzində biz hər iki istiqamətə 10 min yük avtomobili yola salmışıq. Bu, çox müsbət tendensiyadır və ümid edirəm ki, davam edəcək».

İqtisadçı ekspert Vüqar Bayramovun fikrincə, yaradılacaq azad iqtisadi zona struktur və mexanizm baxımından fərqli olacaq və bununla bağlı ayrıca qanunvericiliyin qəbul edilməsi gözlənilir: «Burada məqsəd daha çox dövlət tərəfindən xüsusi zəmanət verilmiş xarici investisiyanın cəlb edilməsinə nail olmaqdır. Bu baxımdan, Ələtdə yaradılacaq azad iqtisadi zona xüsusi mexanizmlə birbaşa xarici sərmayənin cəlb edilməsi ünvanlanan strukturdan ibarət olacaq. Bu da nəticə etibarilə daha çox sərmayənin əldə edilməsinə imkan verəcək».

V.Bayramov qeyd edib ki, xarici sərmayənin cəlb edilməsi, yeni iş yerlərinin açılması, Azərbaycanın ixrac qabiliyyətinin artırılması baxımından azad iqtisadi zonaların yaradılması postneft dövründə əhəmiyyətli vasitə olacaq: «Ələtdə yaradılacaq azad iqtisadi zona həm də gələcəkdə Azərbaycanın digər bölgələrində yaradılacaq azad iqtisadi zonalar üçün nümunə rolunu oynayacaq. Azad iqtisadi zonanın özəlliyi ondan ibarətdir ki, burada yalnız ticarət deyil, həm də istehsal sahələrinin genişləndirilməsi, burada istehsal olunacaq məhsulların xarici və daxili bazara çıxarılması nəzərdə tutulub. Bu baxımdan, yeni yaradılacaq azad iqtisadi zona Azərbaycanda postneft dövründə xarici investisiyanın cəlbi və iqtisadi diversifikasiya baxımından yeni vasitə rolunu oynayacaq».

**Fəxriyyə İKRAMQIZI**

# Ticarət nümayəndələri işgüzar münasibətləri əlaqələndirirlər

Dövlət başçısı tərəfindən 2017-ci ilin əvvəllərində Azərbaycanın milli ixracatçılarının iqtisadi-ticarət maraqlarının daha dolğun şəkildə qorunması və təmsil edilməsi, yerli məhsulların dünya bazarlarına çıxışının genişləndirilməsi, ixracın stimullaşdırılması, əcnəbi iş adamları ilə işgüzar əlaqələrin qurulmasında çevikliyin artırılması məqsədilə xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarda ticarət nümayəndələrinin təyin edilməsi tapşırılıb. İqtisadiyyat Nazirliyi bu istiqamətdə müvafiq tədbirlər planı hazırlayıb və artıq üç ölkədə ticarət nümayəndəlikləri açılıb. İlk ticarət nümayəndəsi cari ilin fevral ayında Rusiya Federasiyasına təyin olunub. İyunun əvvəllərində isə Çin Xalq Respublikasında və Birləşmiş Ərəb Əmirliklərində ölkəmizin ticarət nümayəndəsi fəaliyyətə başlayıb. Nazirlik ilkin mərhələdə Azərbaycanın qeyri-neft ixracında əsas tərəfdaşları olan ölkələrdə ticarət nümayəndəliklərinin açılmasının nəzərdə tutulduğunu bildirir.

**Ticarət nümayəndəsi təyin olunduğu ölkə ilə Azərbaycanın iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi maraqlarının qorunması, ölkəmizin biznes mühitinin və investisiya imkanlarının təbliği və ixracın təşviqi istiqamətində tədbirlər görəcək**

İqtisadiyyat nazirinin müavini Sahil Babayevin sözlərinə görə, Rusiya, Çin və Birləşmiş Ərəb Əmirlikləri ölkəmizin xarici ticarət əlaqələrində mühüm yer tutur. Rusiya Federasiyası ixrac cədvəlində ilk pillədə dayanır. 2016-cı ildə Azərbaycan bu ölkəyə 409 milyon dollar həcmində qeyri-neft məhsulları ixrac edib. Hazırda ölkəmizin qeyri-neft məhsullarının 31%-i Rusiya Federasiyasına ixrac olunur. Digər tərəfdən, ölkəmiz Rusiya ilə investisiya sahəsində geniş əməkdaşlıq edir. Rusiya Azərbaycan iqtisadiyyatına 3 milyard dollardan çox investisiya yatırıb. Respublikamız bu ölkənin 78 regionu ilə əməkdaşlıq edir və 17 federasiya subyekti ilə əməkdaşlıq haqqında sazişlər imzalanıb. Ticarət nümayəndəliyi tərəfindən ölkəmizin qeyri-neft məhsullarının Rusiya bazarına ixracının artırılması və mövcud potensialdan maksimum istifadə olunması məqsədilə əlavə tədbirlər görüləcək. Moskva şəhərindəki Sərgi Mərkəzində Azərbaycan pavilyonunun təmiri, Azərbaycan Ticarət Evinin yaradılması da bu işlər sırasındadır.

Çinlə Azərbaycan arasında ticarət dövriyyəsi təxminən 1 milyard dollar təşkil edir. Ötən il ölkəmiz tərəfindən uzaq Asiya ölkəsinə ixracın həcmi 5,1 dəfə artaraq 272 milyon dollara çatıb. 2017-ci ilin ilk 5 ayında da artım dinamikası davam edib və ölkələrimiz arasında ticarət dövriyyəsi 450 milyon dolları ötüb. Birləşmiş Ərəb Əmirlikləri ilə də respublikamız arasında ticarət-iqtisadi əməkdaşlıq fəaldır. Bu ölkəyə qeyri-neft ixracının genişləndirilməsi istiqamətində son bir il ərzində xeyli işlər görülüb, ixrac missiyası təşkil olunub.

Qeyd etmək lazımdır ki, ticarət nümayəndəsi Azərbaycanın xarici ölkədəki səfirliyinin ümumi rəhbərliyi altında fəaliyyət göstərsə də, iqtisadiyyat nazirinə tabedir. İkinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilən həmin şəxsin əsas fəaliyyəti iqtisadi sahəyə aiddir. Ticarət nümayəndəsi təyin olunduğu ölkə ilə Azərbaycanın iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi maraqlarının qorunması, ölkəmizin biznes mühitinin və investisiya imkanlarının təbliği və ixracın təşviqi istiqamətində tədbirlər görəcək.

Hazırda gündəlikdə olan məsələlərdən biri xarici ölkələrin də Azərbaycanda öz ticarət nümayəndəliklərini açmasıdır. Rusiyanın İxrac Mərkəzi Azərbaycanda ticarət nümayəndəliyi açmaq üçün hökumətə müraciət edib. Mərkəzin nümayəndəsi Qusakov bildirib ki, Rusiya Cənubi Qafqazda ilk nümayəndəliyini Azərbaycanda açmaqla kiçik və orta biznes üçün yeni layihələrin icrasına başlamaq niyyətindədir.

**ELBRUS**

## 2017-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçici olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti il yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin may ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


## ELAN

**Müəsissə və təşkilat rəhbərlərinin nəzərinə!**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, məcburi auditin subyekti olan hüquqi şəxslər hər il maliyyə hesabatlarının düzgünlüyünü müstəqil auditor rəyi ilə təsdiq etdirməlidirlər. Auditdən keçməyən hüquqi şəxslərin rəhbərlərinə tövsiyə olunur ki, 2016-cı il üzrə maliyyə hesabatlarını təxirə salmadan müstəqil auditorun rəyi ilə təsdiq etdirsinlər.

Xatırladırıq ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 464-cü maddəsinə görə məcburi auditdən yayınmağa görə inzibati cərimə nəzərdə tutulmuşdur.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikası Prezidentinin «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə 3 may 2017-ci il tarixli 1361 nömrəli Fərmanına müvafiq olaraq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 464-cü maddəsinə əsasən, qanunvericiliklə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyəti Azərbaycan Respublikasının Auditorlar Palatasına həvalə edilmişdir.

**Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Auditorlar Palatasının www.audit.gov.az saytından əldə edə bilərsiniz.**

*(Məsul şəxs: Məhkəmələrlə iş və inzibati protokollar şöbəsinin müdiri Elnur İbrahimov, Əlaqə telefonları: (012) 465-65-35; 465-65-48 (dax.: 211); (050) 225-50-50).*

Azərbaycan Respublikasının Auditorlar Palatası

beynəlxalq panoram

## ƏDV ilə bağlı ictimaiyyətlə məsləhətləşmələrə başlanıb

Səudiyyə Ərəbistanının Baş Vergi İdarəsi (GAZT) əlavə dəyər vergisini tənzimləyən qanun layihəsi ilə bağlı ictimaiyyətlə məsləhətləşmələrə başlamışdır. Bu verginin 2018-ci il yanvarın 1-dən Səudiyyə Ərəbistanında və İran körfəzi ölkələrinin əməkdaşlıq şurasına daxil olan digər dövlətlərdə tətbiq ediləcəyi nəzərdə tutulur.

Məsləhətləşmələrin məqsədi əlavə dəyər vergisi haqqında qanun layihəsi son mərhələdə təsdiqə göndərilməzdən əvvəl bu layihə haqqında ictimaiyyəti və biznes təmsilçilərini məlumatlandırmaq, onların rəy və təkliflərini öyrənməkdir. Rəy və təkliflərin verilməsi üçün sonuncu tarix iyunun 29-da başa çatır. GAZT-ın baş direktorunun vəzifələrini icra edən Tarek əl Sədxan bildirmişdir: «Məsləhətləşmə ictimaiyyətə və biznes dairələrinə ƏDV haqqında qanun layihəsi ilə bağlı öz rəy və təkliflərini bölüşmək üçün yaradılmış mühüm fürsətdir. İran körfəzi ölkələrində ilk dəfə belə bir vergi tətbiq ediləcək, ona görə də biz ƏDV-nin tətbiqi prosesində dəstəkləyə bilməyimiz üçün biznesin tələblərini və perspektivlərini başa düşə bilmək üçün bütün səylərimizi ortaya qoyuruq. Məsləhətləşmələr həm vergi islahatlarının hazırlanması üzrə göstərdiyimiz səylərin, həm də gördüyümüz işlərin mühüm hissəsidir».

## İrlandiya hind startaplarına vergi güzəşti tətbiq edir

Dünyada əksər ölkələrin immiqrasiya ilə bağlı öz qanunlarını sərtləşdirməyə üstünlük verməsi əsas təmayül olmasına baxmayaraq, Şimali Atlantika ölkəsi olan İrlandiya dövləti başqa mövqe seçərək hind startaplarına yeni güzəştlər təklif etmişdir. Bundan əlavə, İrlandiya hökuməti qarşıdakı üç il ərzində ölkənin bir sıra regionlarında biznes aparmaq üçün əlverişli şərait təmin etmək öhdəliyi də götürmüşdür.

«Biz hind startapları üçün maliyyə mənbələrindən istifadə imkanlarının yaradılmasında, rəqabətə zidd olmayan güzəştlərin verilməsində, rahat tənzimləyici mühitin formalaşdırılmasında maraqlıyıq, - İrlandiyanın aparıcı KİV nümayəndələrinə bəyanatında «IDA İrealand» dövlət şirkətinin baş direktoru Martin Şenaxan deməşdir. - Bundan əlavə, onlar üçün qeydiyyat müddəti 48 saata endirilmişdir. İnanırıq ki, bütün bunlar İrlandiyanı hind startapları üçün cəlbedici vəziyyətə gətirəcək».

Xatırladaq ki, «IDA Ireland» və «Enterprise Ireland» ölkəyə birbaşa xarici sərmayələr cəlb edilməsinə cavabdeh olan dövlət şirkətləridir. Onların məsuliyyətlərinə daxil olan vəzifələrdən biri də Hindistan startaplarına Avropa bazarlarına çıxmaqda kömək etməkdir.

## Qızıl satışından 3% vergi tutulacaq

Hindistanda qızılın satışı yerli hökumətin iyulun 1-dən tətbiq etməyi planlaşdırdığı mallar və xidmətlər üçün yeni unifikasiya edilmiş vergi rejimi çərçivəsində 3%-lik vergiyə cəlb olunacaq. Bundan əvvəl hökumət ən zəruri həyati əhəmiyyət daşıyan mallardan tutulan verginin dərəcələrinə yenidən baxılacağını vəd etmişdi. Hazırda qızılın satışından 1% dərəcə üzrə vergi tutulur, bundan əlavə, dövlət səviyyəsində tətbiq olunan əlavə dəyər vergisinin dərəcəsi də 1% təşkil edir.

Hindistanın maliyyə naziri Arun Caytli bildirmişdir ki, 3 faizlik vergi dərəcəsi çoxdan gözlənilən konsensus nəticəsində müəyyənləşdirilmişdir. Qızılın satışına tətbiq edilən vergi eyni qaydada gümüşün və qiymətli daşların satışından da tutulacaq.



## Çin əməkdaşlıq sazişi imzalayıb və vergiləri artırıb

Avropa İttifaqının (Aİ) iqtisadi və maliyyə məsələləri üzrə komissarı Pyer Moskovisi ilə Çinin gömrük naziri Yuy Quan Çujounun imzaladıqları gömrük əməkdaşlığının strateji çərçivələri haqqında saziş 2018-2020-ci illəri əhatə edir.

Sənəddə Aİ ilə Çin arasında qarşılıqlı əməkdaşlıq və yardımın əsas məqsədləri, eləcə də qarşıdakı illər ərzində gömrük sahəsində əməkdaşlığın prioritetləri öz əksini tapmışdır. Sazişin prioritet təşkil edən məqamları vətəndaşların hüquqlarının qorunması və səmərəli gömrük nəzarəti vasitəsilə qanunsuz ticarətə qarşı mübarizə, qanun çərçivəsində aparılan ticarətlə bağlı gömrük proseslərinin sürətləndirilməsi və inzibati əngəllərin aradan qaldırılmasıdır.

Bunlardan əlavə, sazişdə təchizat zəncirinin təhlükəsizliyi sahəsində əməkdaşlıq, etibarlı treyderlərin müdafiə olunması və zehni əmlakın mühafizəsinin təmin edilməsi, həmçinin maliyyə və ekoloji fırıldaqçılığa mübarizəyə kömək göstərmək kimi məsələlər də nəzərdə tutulur. Saziş elektron ticarət sahəsini də əhatə edir.

Yeri gəlmişkən, əməkdaşlıq sazişinin imzalanması ərəfəsində Çin hökuməti ölkəyə kvotadan artıq idxal olunan şəkərdən artırılmış vergi tutulacağını bəyan etmişdir. Gömrük rüsumlarından əlavə, bu il mayın 22-dən başlayaraq üç il müddətinə müəyyən edilmiş kvotadan artıq şəkərin idxalı üçün 45 faizlik tarif tətbiq olunacaq. 2020-ci il mayın 22-dək bu tarif dərəcəsi ildə beş faiz azaldılacaq, göstərilən vaxtdan sonra isə ləğv edilə bilər. Nazirlik bu qərarı qəbul etmək üçün ölkəyə idxal olunan şəkərin artımı ilə bağlı təhlillər apararaq belə müəyyən etmişdir ki, bu tendensiya ölkənin şəkər sənayesinə böyük ziyan vurur. Qərar xammala və əsasən saxarozadan ibarət hazır şəkərə aiddir.

İnkişaf etməkdə olan ölkələr iki məhdudiyyət nəzərə alınmaqla tarif ödəməkdən azad edilirlər: ya bir ölkənin Çin idxalındakı payı üç faizdən artıq olmamalı, ya da inkişaf etməkdə olan ölkələrin ixracdakı ümumi payı doqquz faizi keçməməlidir.

Bundan əlavə, Çinin Ticarət Nazirliyi ayrıca olaraq ABŞ-a və Yaponiyaya katexola (pestisidlərin, ətriyyat məhsullarının və əczaçılıq preparatlarının hazırlanmasında istifadə edilən kimyəvi maddə) ixracı üçün antidempinq rüsumunun ləğv olunması ilə bağlı qərar qəbul etmişdir.

## Vergidən yayınmaya qarşı yeni tədbirlər

Kanada hökuməti vergi ödəməkdən yayınma ilə mübarizə məqsədilə gəlir vergisinin tutulmasının ilkin qaydalarını yenidən nəzərdən keçirəcək. Gözlənildiyinə görə, Kanadanın Gəlirlər Agentliyinin transmilli şirkətlər və iri müəssisələr üçün işğüzar gəlirlər üzrə audit prosesini təkmilləşdirməsi 13 milyard ABŞ dollarından artıq əlavə vəsaitin büdcəyə cəlb edilməsinə şərait yaradacaq.

Hökumətin əsas məqsədi elə bir ədalətli vergi sistemi yaratmağa nail olmaqdır ki, öz gəlirlərini gizlədərək dövləti aldatmaq istəyənlər daha gizlənə bilməsinlər və əməllərinə görə cavab versinlər. «Panama sənədləri» ictimaiyyətə açıqlandıqdan sonra hökumətin belə bir qərar qəbul etməsi təsadüfi sayıla bilməz, həmin sənədlərdə Kanadanın iri müəssisələrinin, eləcə də yüksək vəzifəli dövlət rəsmilərinin vergidən yayındıqlarını təsdiq edən məlumatlar ortaya çıxmışdı.

## Xəbər lenti

**Baham adaları** hökuməti bildirmişdir ki, OECD-nin vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım konvensiyasına qoşulacaqdır. Bu addımın atılmasında məqsəd hazırda konvensiyada iştirak edən 111 ölkə ilə əməkdaşlıq etməkdir.

**Rumıniya**da vergi yükünün əhəmiyyətli şəkildə azaldıldığını bildirən Beynəlxalq Valyuta Fondu ölkə qanunvericilərini vergilərin bundan sonra azaldılmasından imtina etməyə çağırmışdır.

**Vyetnam**ın vergi ödəyiciləri təzliklə yanacaq üçün ekoloji səbəbə görə artırılmış vergi ödəməli olacaqlar. Hökumət ətraf mühitin mühafizəsini gücləndirməyi və yanacaq isteklakına vergini artırmağı təklif etmişdir. Bununla belə, hökumətin vədinə görə, təklif idxal vergisinin azaldılması hesabına kompensasiya olunacaq.

**Banladeş** iyunun 1-də ictimaiyyətə təqdim etdiyi yeni büdcədə korporativ verginin azaldıldığını və əlavə dəyər vergisi ilə bağlı yeni qanun qəbul edəcəyini açıqlamışdır. Tikiş sənayesi üzrə korporativ vergi dərəcəsi 20 faizdən 15 faizə, ekoloji baxımdan təmiz işlədiyi beynəlxalq miqyasda təsdiq edilmiş şirkətlər üzrə 14 faizə endiriləcək.

**Barbados**un maliyyə naziri 2017-ci ilin büdcəsində vergilərin, o cümlədən sosial məsuliyyət üzrə rusumların və benzin üçün aksizlərin, eləcə də valyuta əməliyyatları üzrə iki faizlik komissiya haqqının yığımında artım olduğunu bəyan etmişdir.

**İsveçrə** hökuməti elan etmişdir ki, Tunisin qarşılıqlı hüquqi yardım barədə müraciətinə cavab olaraq, həmin ölkədən qanunsuz şəkildə çıxarılmış aktivlərin qarşılığı kimi 3,9 milyon dollar vəsait köçürmüşdür.

## Milyarderlər offşorlara üstünlük verirlər

«Reuters»in təhlilinə görə, Rusiyanın üç ildir apardığı «deoffşorizasiya» siyasəti arzu edilən nəticəni verməmişdir. Agentliyin məlumatına görə, ölkənin iri işğüzar dairələri Rusiyada vergi ödəməkdənsə vergi rezidenti statusunu itirməyə daha çox üstünlük verirlər.

«Forbes» jurnalının siyahısında yer tutan ən varlı iş adamlarından ikisi Rusiyada vergi rezidenti olmaqdan imtina etdiklərinin bildirmişdir (bunun üçün il ərzində ölkədə 183 gündən az olmaq kifayət edir). Onlar bu addımı atmağa 2014-cü ildə qəbul edilmiş «deoffşorizasiya» haqqında qanun qüvvəyə minəndən sonra gəlmişlər. Həmin qanuna əsasən, offşorlarda qeydiyyata alınmış sahibkarlar öz aktivlərini üzə çıxarmalı və Rusiyada dövlətə vergi ödəməlidirlər.

Bildirilmişdir ki, qanun qəbul ediləndən sonra qeyri-rezident statusu alanların dəqiq statistikası yoxdur, bununla belə, Rusiyanın ən varlı 500 iş adamından təxminən üçdən birinin ölkədən «deoffşorizasiya» qanununa görə çıxdığı qeyd edilir. «Reuters»in qənaətinə görə, artıq əsas aktivlərini Rusiyada saxlamaqla ölkənin vergi sistemindən kənarda olan bütöv bir sahibkarlar seqmenti formalaşmışdır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Əsl adı Əli Əhməd Səid Əsbər olan, həyatının böyük hissəsini Livan və Fransada keçirən və əsərlərini doğma ərəb dilində yazan, həmçinin «Yeni poeziya» hərəkatının öndə gedənlərindən biri hesab olunan ərəb şairi; 2.Alken sinfinə daxil olan doymamış karbohidrogen; 3.Asiya və Afrika səhralarında əsən çox şiddətli, isti və quru külək; 4.İsmayıllı rayonunda kənd; 5.Azərbaycanın qədim milli xörəklərindən biri; 6.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 9.Kollektiv yürüyüşü müşayiət etmək və müəyyən əhval-ruhiyyə yaratmaq üçün musiqi əsəri; 13.Atmosferdəki havanın əsas tərkib hissəsini təşkil edən maddələrdən biri; 15.Bütün dövlətlərdə qəbul edilmiş hərbi dəniz donanmasında yüksək rütbə; 16.Səmanın cənub yarımkürəsində bürc; 17.İri dəniz məməlisi; 18.Rusiyada XX əsrin əvvələrində iki futbol klubunun birləşməsindən əmələ gələn yeni futbol klubunun adı; 20.Yundan və ya pambıqdan toxunan xovsuz xalça növü; 21.Qara dənizin Gürcüstan sahilində qəsəbə. Kurort kimi məşhurdur. **Soldan sağa:** 1.Naxçıvan şəhərinin cənub-şərqində, Araz çayı sahilində yerləşən hərbi istehkam tipli qala; 5.Xalq arasında yayılmış adət, ənənə; 7.Nikbinlik; 8.Cəlilabad rayonunda kənd; 10.Xanəndə, Azərbaycanın xalq artistinin adı (1934-2008); 11.ABŞ-da ştat; 12.Karotin, C vitamini, şəkər, üzvi turşular və pektin maddələrlə zəngin olan bitki; 14.Xörək hazırlayan usta; 19.ABŞ kinorejissoru və prodüserinin soyadı. «Xaç atası» filminin ssenaristi; 21.Rusiya Federasiyasının Lipetsk vilayətində şəhər; 22.Qadın adı; 23.Kartof, kələm, çuğundur, yumurta və sirkə ilə hazırlanan soyuq yemək (qəlyanaltı); 24.Havaya sovrulan torpaq dənəcikləri; 25.Süsənkimilər fəsiləsindən çoxillik bitki növü; qarğasoğanı.



*Kartof, kələm, çuğundur, yumurta və sirkə ilə hazırlanan soyuq yemək (qəlyanaltı)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nitrat; 2.Oblomov; 3.Oksid; 4.İbadan; 5.Frans; 6.Skuter; 9.Duma; 13.Elki; 15.Çovurar; 16.Ksenon; 17.Romans; 18.Ananas; 20.Royal; 21.Dadlir. **Soldan sağa:** 1.Neologizm; 5.Fəs; 7.Talisman; 8.Maku; 10.Armud; 11.Aluksne; 12.Evren; 14.Xalça; 19.Sirokko; 21.Divan; 22.Noya; 23.Çaldıran; 24.Nal; 25.Ekslibris.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Eurosport: «Tour d'Azerbaïdjan-2017» ilin ən uğurlu layihələrindən biridir

Avropanın nüfuzlu idman kanalı «Eurosport» Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaïdjan-2017» veloturu ilə bağlı statistik məlumatları açıqlayıb.




Hesabata əsasən, turun icmallarını aktiv şəkildə izləyən tamaşaçıların sayı 16 milyona yaxın olub. Ümumilikdə isə «Eurosport» kanalına baxan 34,2 milyon tamaşaçı «Tour d'Azerbaidjan-2017» ilə bağlı bu kanalda gedən anonslar, yayımlar və süjetlər vasitəsilə yarış haqda məlumatlar alıb. Diqqət çəkən əsas məqam veloturun 4-cü mərhələsinə digər yarış günləri ilə müqayisədə marağın daha çox olmasıdır. Əvvəlcədən də gözlənildiyi kimi, Ağsu dolaylarının marşruta əlavə edilməsi həm yarışın gedişinə, həm də izləmə sayına müsbət təsir göstərib.

«Eurosport» kanalının rəsmi internet səhifəsində yarışla bağlı məlumatları izləyənlərin sayı 1 milyonu keçib. Xüsusən, «Tour d'Azerbaidjan-2017»ni izləmək üçün 5 səbəb» adlı yazıya fransız və ispan dilli oxucular tərəfindən böyük maraq göstərilib.

Yeri gəlmişkən, iyunun 15-i, Bakı vaxtı ilə saat 18:30-da «Eurosport 1» efirə veriləcək və bu tamaşaçı sayının bir qədər də artacağı anlamına gəlir.

«Eurosport» kanalı Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2017» veloturunu ilin ən uğurlu layihələrindən biri kimi dəyərləndirir və konkret rəqəmlər də yarışa olan böyük marağın təzahürüdür. Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş yarışda 18 ölkədən 22 komanda mübarizə aparıb ki, onlardan da 6-sı peşəkar kontinental, «Synergy Baku» da daxil olmaqla 16-sı kontinental kollektiv olub. 5 gün ərzində iştirakçılar Bakı və Sumqayıt şəhərlərinin, həmçinin Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz və Şəki rayonlarının ərazilərindən keçməklə ümumilikdə 836 km məsafə qət ediblər.

# Güləşçilərimiz Gürcüstandan dörd medalla qayıtdılar

Tbilisidə sərbəst və yunan-Roma güləşi üzrə Qızıl Qran-Pri turnirinə yekun vurulub. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, baş məşqçi Firdovsi Umudov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında turnirdə iştirak edən sərbəst güləş yığmamızın üzvləri 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar.



Qalib Əliyev (61kq) və Aleksandr Qostiyev (86 kq) bütün rəqiblərindən üstün olaraq qızıl medala sahib olublar.

Turnirdə 57 kiloqram çəkidə mübarizə aparan Mircəlal Həsənzadə gümüş medalla kifayətlənib. Hər üç güləşçimiz finalda gürcü idmançılarla qarşılaşıblar. Bürünc medalı isə yığmamıza 65 kiloqram çəkidə yarışan Coşqun Əzimov qazandırıb. Üçüncü yer uğrunda görüşdə o, komanda yoldaşı Teymur Məmmədovdan üstün olub.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Vaqif Zeynallı təmsil edib.

# Boksçuların çəki dərəcələrinə yenidən baxılacaq

«Tokio-2020» Yay Olimpiya Oyunlarının boks yarışlarının proqramında dəyişiklik edilib. Azərbaycan Boks Federasiyasından bildirilib ki, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) tövsiyəsinə əsasən, Beynəlxalq Həvəskar Boks Assosiasiyası (AIBA) Yaponiyanın paytaxtında mübarizə aparacaq boksçuların çəki dərəcələri ilə bağlı qərar verib.

Yeni proqrama əsasən, «Gündoğar ölkə»də də bu növ üzrə mübarizədə 13 dəst medal oynanılacaq. Ancaq növbəti Olimpiadada kişi boksçular 10 deyil, 8 çəki dərəcəsində qalibi müəyyənləşdirəcəklər. Əvəzində qadın boksçularda iki çəki dərəcəsi artırılaraq beşə çatdırılıb. BOK bu qərarı gender balansının qorunması ilə izah edib.

Bununla əlaqədar AIBA-nın tərkibindəki müvafiq komissiyalarla müzakirələr aparılıb, optimal variantların tapılması tapşırılıb. Həmin komissiyaların işinin nəticəsi isə iyulun sonunda bir araya gələcək İcraiyyə Komitəsinin illik yığıncağında müzakirəyə çıxarılacaq. Toplantıda «Tokio-2020»də boks yarışlarının hansı çəki dərəcələrində olacağı təsdiqlənəcək.

# «Qarabağ» loqosunu yeniləmək istəyir

Ağdamın «Qarabağ» futbol klubu ölkə çempionatlarında ardıcıl dördüncü dəfə çempion olmaqla, ümumilikdə bu sayı beşə çatdırıb. Bir çox dünya və Avropa klublarında adətən beş çempionluq bir ulduzla qeyd olunur.

Klubdan mətbuata daxil olan xəbərə görə, «Qarabağ» bu praktikadan yararlanaraq loqosunun üzərinə 1 ulduz əlavəsi istiqamətində fəaliyyətə başlayıb. Klubun loqosunda digər bir dəyişiklik isə «FK Qarabagh» ifadəsinin «Qarabağ FK» ilə əvəzlənməsidir.

Klub bu dəyişikliklərlə bağlı artıq Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə də müraciət edib.

mozaika

texnologiya



## Uçan avtomobillərin istehsalına hazırlıq gedir

Yaponiyanın «Toyota» şirkəti tezliklə uçan avtomobillərin istehsalına başlayacaq. Şirkət tərəfindən belə avtomobillərin arxa ötürücülərinin hazırlanması istiqamətində işin başlanıldığı bildirilir. «Toyota»nın uçan avtomobilinin prototipi 2020-ci ilin yayında Tokioda keçiriləcək Yay Olimpiya Oyunları zamanı nümayiş olunacaq. Həmin avtomobilin Olimpiya məşəlini yandıracağı nəzərdə tutulur.

Şirkət nümayəndələrinin sözlərinə görə, «Toyota» uçan maşınlar ideyasının «ilkin mərhələdə həyata keçirilməsi»nə başlayıb. Həmçinin bildirilir ki, bu layihənin kommersiyalaşdırılması istiqamətində qərar qəbul olunmayıb.

Buna baxmayaraq, dünyanın ən böyük avtomobil istehsalçısı sayılan şirkətlərindən birinin belə bir layihədə iştirakı bu istiqamətdə ciddi addımların atıldığını deməyə əsas verir. Bu, eyni zamanda, həmin layihənin nə dərəcədə real olması barədə müzakirələrin qızışmasına da şərait yaradır.

kosmos

## «Ay kəndi»

Çinin Milli Kosmik İdarəsi Yerin peykini məskunlaşdırmaq üçün hazırlanan 160 kvadratmetr sahəsi olan «Ay kəndi» laboratoriyasını təqdim edib. Bu laboratoriyada gələcək astronavtların uzun müddət Ayda yaşamaq qabiliyyətləri yoxlanılacaq. «Ay kəndi» kiçik şəhər mənzilini xatırladan bir neçə yaşayış otağından ibarətdir. Burada yataq, qonaq və hətta hamam otaqları da var. Dörd könüllü tələbədən ibarət iki qrup bir il müddətində burada yaşayacaq. Astronavtları qida ilə təmin etmək üçün bazada istixana və «mini-ferma» quraşdırılıb. Çin yaxın 20 ildə Ayda analoji orbital baza yaratmaq niyyətindədir. Bu iddialı planı həyata keçirmək üçün Avropa Kosmik Agentliyi ilə danışıqlar aparılır. «Ay kəndi» müştərək Avropa-Çin layihəsi də ola bilər.

Qeyd edək ki, ilk çinli astronavt cəmi 10 il bundan əvvəl kosmosa uçub. Lakin ölkə öz kosmik proqramına maliyyə dəstəyini xeyli artıraraq itirilmiş vaxtın əvəzini çıxmaq və nəhəng kosmik dövlətə çevrilmək niyyətindədir.



sağlam qida

## Tutun faydaları

Yazda tut çubuğunun qabığı soyulandan sonra altındakı ağ zoğlar yaranın üzərinə qoyulanda ən qısa vaxtda bitişmə əmələ gəlir. Tut yarpağı sivrimlə bir yerdə qaynadılıb soyuyandan sonra qarqara edəndə diş ağrısını kəsir. Tut yarpağını şorabanın üstünə qoyanda qoxu çəkilir. Tənək yarpağı kimi tut yarpağına da dolma büküb bişirmək olur. Hətta bəzi regionlarda tut yarpağını xırda-xırda doğrayıb kətənin içinə tökürlər.

Tut nadir ağacdır ki, onun həm yarpağı, həm budağı, həm meyvəsi, həm də oduncağı çox qiymətlidir. İpəkqurdu yalnız və yalnız tut yarpağı ilə qidalanır, qurumuş tut budaqlarından təndirə yaxşı alışıq olur, közü üstündə kabab bişirirlər. Tut ağacından ət döymək üçün toxmaq hazırlanır. Su dəyirmanının unluğu, təhnəsi, xəlbirin və ələyin sağanağı tut ağacından hazırlanır.

Sümük, oynaq ağrıları zamanı tutla dolu qıcqırdılmış çəlləyə girmək çox faydalıdır. Tut meyvəsi və ondan hazırlanan doşab və irçal daxili xəstəliklər zamanı çox böyük şəfaverici rol oynayır.

Qaraciyər ağrılarında qara tut, həzmi yaxşılaşdırmaq üçün isə tam yetişməmiş turş tut meyvələrini yemək müalicəvi təsir göstərir. O, həm də qan təzyiqini aşağı salır və iştaha gətirir. Tut meyvəsinin şirəsi boğaz ağrıları və difteriya zamanı faydalıdır, anginada qarqara kimi istifadə olunur. Qara tutun meyvələri həzmi yaxşılaşdırır və mədəni möhkəmləndirir, dizenteriya, diabet, qanazlığı və orqanizmin ümumi zəifliyində çox faydalıdır.

Ağ tutun yarpaqları dəmlənilərək soyuqdəymələrdə hərarətsalıcı vasitə kimi, yarpaqları və qabıqları isə dəmləmə və bişirmə şəklində epilepsiya əleyhinə məlhəm kimi qoturluq əleyhinə işlədilir. Tutun gövdə və kök qabığının dəmləməsi və maye ekstraktı hipertoniya, sidikqovucu və qurd xəstəliklərində tətbiq edilir.



problem

## Smartfonlar uşaqlarda nitqin açılmasını gecikdirir

Ailələrin uşağın inkişafı ilə bağlı gözlədikləri ən əsas mərhələ dil açması, danışmasıdır. Nitq uşaqların ümumi, eyni zamanda əqli inkişafının da əsas göstəricisidir. Bu asan olmayan möcüzəvi hadisə uşaqların əksəriyyətində öz-özünə baş versə də, bir anda olmur.

Azərbaycan Tibb Universitetinin qulaq, burun, boğaz xəstəlikləri kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Afaq Abbasova AZƏRTAC-a müsahibəsində deyib: «Körpələr əslində anadan olandan ünsiyyətə başlayırlar və bir yaşlarında artıq ilk sözlərini söyləyirlər. Uşaqlar, adətən, 18 aylığında 20, 24 aylığında ən az 50 söz deməli, iki yaşında isə iki sözlü cümlələr qura bilməlidirlər. Amma bu, hər zaman belə olmaya bilər, yəni nitqin inkişafı gecikə bilər. Bundan əlavə, bəzi körpələr vaxtında danışmağa başlasalar da səsləri düzgün tələffüz etməyə və ya düzgün sırayla deməyə bilərlər. Nitq problemləri sadə görünsə də, bəzən daha ağır halların ilk əlaməti ola bilər. Bu cür nitq problemləri müşahidə olunan uşaqların gələcəkdə oxumayazmasında da çətinliklər görülə bilər.

Nitq qüsurları ilə bağlı problemlərin səbəbləri çox fərqlidir. Bunlardan anadangəlmə xromosom anomaliyaları, genetik xəstəliklər, zəka geriliyi, eşitmə azlığı, dodaq-damaq yarığı, ailədə nitq gecikməsi halları, autizm, uşağın böyüdüyü mühit, nitqin inkişafını dəstəkləyən ətraf qıcıqların azlığı təktək və ya birlikdə nitq qüsurlarına səbəb ola bilər. Günümüzün ən böyük problemlərindən biri də telefon, televizor, smartfonlardır. Artıq bu vasitələrin uşaqlar tərəfindən çox istifadəsinin də nitq gecikmələrinə səbəb olduğu təsdiqlənib. Uşaqlarda rast gəlinən nitq problemləri əsasən dil gecikməsi, dili anlama və ya ifadə etmədə olan problemlər, artikulyasiya, yəni tələffüz və fenologi, yəni səsləri doğru ardıcıllıqla deyə bilməmək, axıcı danışıq, yəni kəkələmə kimidir. Sadalanan bu problemlər müşahidə edildikdə həkimə müraciət etmək lazımdır».

**Müdriklər deyib ki...**

*«Ucalmağın yolunda lift işləmir, pilləkənlər isə həmişə yerindədir».*

*Brayan Treysi (1944)*

